RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 173 (8766) CÜMƏ AXŞAMI, 19 avqust 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Bakı şəhərinin Nizami rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhərinin Nizami rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.1.14-cü yarımbəndində göstərilmiş məbləğin 1,6 milyon (bir milyon altı yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 avqust 2021-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 18 noyabr tarixli 869 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan Azərbaycan Respublikasının prokurorluq işçilərinin və prokurorluq orqanlarına işə götürülən digər işçilərin ştat sayı həddi"ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 18 noyabr tarixli 869 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 11, maddə 1471) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan Azərbaycan Respublikasının prokurorluq işçilərinin və prokurorluq orqanlarına işə götürülən digər işçilərin ştat sayı həddi"ndə dəyişikliklər təsdiq edilsin.

2. Bu Sərəncamın 1-ci hissəsi ilə bağlı maliyyələşdirmə məsələləri Azərbaycan Respublikasının dövlət büdcəsində Azərbaycan Respublikası prokurorluq orqanlarının saxlanılması üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 avqust 2021-ci il*



# Əzəmətli Kəlbəcər qüdrətli Xilaskarı ilə görüşdü

## "...Biz bu gün buradayıq, Kəlbəcərdəyik, Azərbaycanın çox gözəl guşələrindən biri olan Kəlbəcərdəyik və biz bundan sonra burada əbədi yaşayacağıq..."

**Nə qürurlu, fəxarətli, coşqulu, təntənəli anlara şahidlik etdik, İlahi!!! Gözlərimiz önündə dağ-dağa qovuşdu, zirvələr qoşalaşdı...**
**Əzəmətli Kəlbəcər qüdrətli Xilaskarı ilə görüşdü...**

Çaylar, şəlalələr, bulaqlar çağlamaqlarına, meşələr pıçıldaşmalarına, quşlar avazlarına bir anlıq ara verib bu möcüzənin tamaşasına durdular. Fəxarətdən buludların gözlərindən sevinc göz yaşları süzüldü, ucsuz-bucaqsız çəmənlərdə jalələrə dönüb Günəşin üzünə gülümsədilər...

Al-əlvan kəpənəklər, zəhmətkeş arılar çiçəkdən-çiçəyə müjdə daşıdılar, zirvələrin başına dolanan məğrur qartalların zəfər qiyyəsi dağlarda, daşlarda qələbə nərəsinə çevrilib dünyanı lərzəyə gətirdi...

Qüdrətdən var olan ecazkar Kəlbəcər bütün cah-cəlalı ilə Qarabağ zəfərinin baş qəhrəmanı İlham Əliyevin pişvazına çıxdı...

### Kəlbəcər səbirsizliklə Xilaskarının yolunu gözləyirdi...

Düz bir qərinə idi ki, Kəlbəcər dağları dumandan başına hördüyü qəm çalmasını açmırdı. Kədər, ələm alnında qırışa, ürəyində ağır bir yaraya çevrilmişdi. Düz bir qərinə idi ki, Kəlbəcərin gözü yol çəkir, doğma elinin həniri, nəfəsi üçün burnunun ucu göynəyirdi. Həsrətini Murovla, Dəlidağla, Qoşqarla bölüşür, əsən yellərdən, coşan rüzgarlardan didərgin elini soraqlayırdı...

Bu illər ərzində Kəlbəcərin gözlərində qan yaşa çevrilərək axan şəlalələri, çayları, bulaqları qurumuşdu. Günəş şüası girməyə cəsarət etməyən qalın meşələri saralıb-solmuş, ucsuz-bucaqsız çəmənləri bomboz bozarmışdı...

Zər təbiətli Kəlbəcər elə tar-mar olmuş, elə sınıq düşmüş, elə taqətdən düşmüşdü ki, daha qəm yükünü çəkməyə güc-qüvvəsi də qalmamışdı...

Kəlbəcər haray çəkirdi, ah-naləsi ərşə dirənmişdi...

Amma bütün bu çətin sınaqlardan sonra sanki Kəlbəcərin üzünə gün doğmuşdu. Qəfildən açılan bir atəş səsi kədərdən yorğun düşən qədim yurdu diksindirmiş, gözlərinə işıq, dizlərinə qüvvət gətirmişdi. Qəhrəman Azərbaycan oğulları bir ağızdan "Yaralı yurdum, imdadına yetdik!" söyləmişdilər...

Elə bil bir andaca hansısa sehrli qüvvə bu təbiət incisinin yaralarına məlhəm çəkmiş, ağrı-acısı sovrulub getmişdi...

Azadlığının xoşbəxtliyi, doğma elinə qovuşacağının bəxtəvərliyi ürəyini dağa döndərmişdi.

İndi isə Kəlbəcər səbirsizliklə Xilaskarının yolunu gözləyirdi...

### Qalib sərkərdə bizi Murovdan salamladı

Və o gün Ali Baş Komandan İlham Əliyev, qalib sərkərdə olaraq zirvədən, Ömər aşırımından Kəlbəcərin füsunkar mənzərəsini seyr edərkən və qürurla yolunun Kəlbəcərə olduğunu söyləyib bütün kəlbəcərliləri təbrik edərkən, sevincdən, fərəhdən göylərdə qanad açdıq...

Müzəffər sərkərdəmiz İlham Əliyev Birinci xanım Mehriban Əliyeva ilə çiyin-çiyinə bu dəfə yolunu Kəlbəcərdən, Laçından salmışdı.

Əl açıb göylərə Tanrıya şükürlər etdik, bizə bu əlçatmaz xoşbəxtliyi yaşatdığı üçün Ali Baş Komandan İlham Əliyevə sonsuz minnətdarlıq duaları etdik...

Neçə illər idi ki, vətən nisgilini, yurd özləmini bağrımıza basıb yaşamağa çalışırdıq. Zorla qovulduğumuz doğma od-ocağımıza, ana torpağımıza həsrət qalmışdıq. Könlümüzə Vətən düşəndə, burnumuzun ucu Kəlbəcər üçün göynəyəndə ağrı-acıdan sinəmizdən qopan ahlar ərşə dirənirdi...

Yalnız röyalar idi ümid, pənah ünvanımız, əlimiz çatmayan, ünümüz yetməyən Kəlbəcərə yuxularda qovuşa bilirdik. Yalnız o zaman xoşbəxt olurduq. Amma bu yuxulardan oyanmaq, real gerçəkliyə qayıtmaq, hər şeyin bir andaca izsiz-tozsuz yoxa çıxmasının yaratdığı kədər, qüssə, qəzəb qarışıq hissləri keçirmək isə bir başqa işgəncə olurdu...

Amma budur, bütün bu əzablara, iztirablara son qoyulmuşdu və biz artıq Vətən, Kəlbəcər özləmini ürəyimizdən silmişdik. Və 30 illik zaman müddətinin əvvəlində olduğu kimi, indi Kəlbəcər qonaq-qarasını qarşılamağa hazırlaşırdı. Murovun zirvəsindən, Ömər aşırımından Kəlbəcəri salamlayan tarixindəki ən əziz qonağı İlham Əliyevi mehman etmək üçün səbirsizlənirdi...

### Zirvəyə qartal yaraşır

Bəli, bu o Ömər aşırımı idi ki, düz 28 il əvvəl başıaçıq, ayaqyalın, çovğunlu-qarlı, şaxtalı bir havada Kəlbəcər eli onu aşaraq Gəncəyə pənah gətirmişdi. 1993-cü ilin o məşum aprel günündə Murov bir tufan, bir fırtına qoparmışdı ki, elə bil qiyamət günü idi. Sanki Murov hər vəchlə Kəlbəcər elinin Kəlbəcərdən uzaq düşməsinin qarşısını almaq istəyirdi...

Neçə-neçə kəlbəcərli o şaxtada, qarda donmuş, canını Murovun həmin dolanbac yollarında tapşırmışdı...

İllərlə o cansız bədənlərə Murov məzar olmuş, narahat, didərgin ruhlara layla çalmışdı...

***Ardı 5-ci səh.***

# Yeni növraq Laçına da gəldi

**Dağların "quşqonmaz" zirvəsində əsrlərin "dizini qatlayan", minilliklərdən soraq verən qalalar məskəni Laçının vəsfi daima şeirin, musiqinin ritminə köklənib.**

Amma son illər bəstələnən bir mahnı da var idi ki, Laçının təkcə təbiətini deyil, həm də taleyini ifadə edirdi. Az qala 30 ilə yaxın idi Laçından uzaq düşəndən ata yurdunun xiffətini çəkən Məhəbbət Kazımovun haraylı səsində "Laçınım mənim..." mahnısı təkcə laçınlıları deyil, hamını yandırıb-yaxır, qıy vuran qartalları qayalı-daşlı dağlara səsləyirdi.

Və o gün gəldi... 44 günlük Vətən müharibəsinin Azərbaycan Ordusunun rəşadətli qələbəsi ilə başa çatması bizi dağlara, dağları isə bizə qaytardı. Bu gün onların əzəmətini bir az da yüksəldən ən əziz qonaqlarını qəbul edir dağlarımız. Azərbaycan Prezidenti, Müzəffər Ordumuzun Ali Baş Komandanı İlham Əliyev birinci xanım Mehriban Əliyeva ilə birlikdə bu yerlərin qonağı oldular. Dağ vüqarlı qonaqları ana təbiət öz füsunkar gözəllikləri ilə qarşıladı.

Xatırladaq ki, Vətən müharibəsində əldə edilən qələbədən sonra işğaldan azad olunan ərazilərimizdə bərpa və yenidənqurma layihələrinə start verilib və onlardan biri Prezident İlham Əliyevin sərəncamına əsasən tikilən Kəlbəcər-Laçın avtomobil yoludur. Birinci və ikinci texniki dərəcəyə uyğun tikiləcək 72,8 kilometrlik yolun hərəkət hissəsinin eni 9-16 metr olacaq. İki və dörd hərəkət zolaqlı yol üzərində altkeçidlər və körpü inşa ediləcək. Yol üzərində 3 tunelin tikintisi də aparılacaq ki, onların da ümumi uzunluğu 9450 metrə çatacaq.

Dövlət başçısı Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3,4 kilometrlik tunelin təməlini qoydu. Bu tunelin istifadəyə verilməsi gediş-gəlişi xeyli asanlaşdıracaq. Təməlqoyma mərasimində çıxış edən Prezident bildirdi ki, bölgənin, Şərqi Zəngəzurun hərtərəfli inkişafı üçün avtomobil yollarının xüsusi əhəmiyyəti var. Dövlət başçısı qeyd etdi k, azad edilmiş torpaqların investisiya proqramı tutulanda məhz onun təşəbbüsü ilə tunellər də layihələrə salınıb: "...Tunelin tikintisi həm çətindir, xüsusilə belə ağır dağlıq relyefdə, eyni zamanda, çox böyük xərclər tələb edir. Ancaq biz bunu edirik və edəcəyik. Çünki bu, bölgənin, Şərqi Zəngəzurun inkişafına lazımdır. İnsanlar buraya qayıdandan sonra artıq Azərbaycanın digər bölgələri ilə çox rahat əlaqəyə malik olacaqlar.

***Ardı 5-ci səh.***

# Milli mənafeləri layiqincə qoruyan Lider

Azərbaycan İkinci Qarabağ müharibəsindən sonra da milli maraqlarını inamla təmin edir. Qarabağda həyata keçirilən quruculuq işləri, dövlət sərhədinin dəqiqləşdirilərək möhkəmləndirilməsi göstərir ki, qarşıda duran vəzifələr uğurla həyata keçirilir. Prezident İlham Əliyev "CNN Türk" televiziyasına müsahibəsində, həm də Kəlbəcər və Laçın rayonlarına səfəri zamanı nitqində bu məsələlərə bir daha nəzər saldı.

Milli Məclisin deputatlarının fikirləri bu barədədir.

***Bax: səh. 6***

# Koreya Milli Assambleyasının sədri Azərbaycana rəsmi səfərə gəlib

Avqustun 18-də Koreya Respublikası Milli Assambleyasının sədri Park Byonq-Soqun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana rəsmi səfərə gəlib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Heydər Əliyev Beynəlxalq Hava Limanında Koreya nümayəndə heyətini Milli Məclis Sədrinin müavini Fəzail İbrahimli, Azərbaycanın Koreya Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Rəmzi Teymurov, Koreya Respublikasının Azərbaycandakı səfiri Kim Tonq Op və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində Koreya nümayəndə heyətinin Azərbaycan rəsmiləri ilə bir sıra görüşləri nəzərdə tutulub. Qonaqlar Milli Məclisin Sədri Sahibə Qafarova, Koreya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri, ölkəmizdəki koreyalı iş adamları ilə də görüşəcəklər. Görüşlərdə iki ölkə arasında müxtəlif sahələrdə münasibətlərin inkişafına dair fikir mübadiləsi aparılacaq, parlamentlərarası əlaqələrin perspektivləri müzakirə olunacaq.

Səfər zamanı nümayəndə heyətinin üzvləri Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edəcəklər. Qonaqlar həmçinin Qobustan Milli Tarix-Bədii Qoruğu, Heydər Əliyev Mərkəzi, Azərbaycan Milli Xalça Muzeyi və İçərişəhərlə tanış olacaqlar.

Koreya Milli Assambleyası nümayəndə heyətinin rəsmi səfəri avqustun 20-də başa çatacaq.

# Azərbaycanda əhalinin sayı 10 milyon 139 min nəfərə çatıb



**İlin əvvəlindən ölkə əhalisinin sayı 20 min 63 nəfər və ya 0,2 faiz artaraq 2021-ci il iyul ayının 1-i vəziyyətinə 10 milyon 139 min 196 nəfərə çatıb.**

Bu barədə AZƏRTAC-a Dövlət Statistika Komitəsindən məlumat verilib.

Bildirilib ki, əhalinin 53 faizini şəhər, 47 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir.

## A.Ə.Aslanovun 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında mətbuat sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Aslan Əhməd oğlu Aslanov 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 avqust 2021-ci il*

# Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycanın bir sıra ölkələrdəki səfirləri ilə görüşüb

Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycanın bir sıra xarici ölkələrdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirləri - ölkəmizin Pakistan İslam Respublikasındakı səfiri Xəzər Fərhadov, Latviya Respublikasındakı səfiri Elnur Sultanov, Avstriya Respublikasındakı səfiri Rövşən Sadıqbəyli, Belçika Krallığındakı səfiri Vaqif Sadıqov, Türkiyə Respublikasındakı səfiri Rəşad Məmmədov, Estoniya Respublikasındakı səfiri Anar Məhərrəmov ilə görüşlər keçirib.



Sədr Sahibə Qafarova həmçinin Azərbaycanın Polşa Respublikasındakı səfiri Nərgiz Qurbanova, Avropa Şurası yanındakı daimi nümayəndəliyinin rəhbəri, səfir Fəxrəddin İsmayılov, Koreya Respublikasındakı səfiri Rəmzi Teymurov və Moldova Respublikasındakı səfiri Qüdsi Osmanovla da görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşlərdə Milli Məclisin Sədri Azərbaycan həqiqətlərinin təbliği, dövlət maraqlarımızın qorunması, beynəlxalq əlaqələrimizin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərdə parlament diplomatiyasının imkanlarından səmərəli istifadə olunmasının vacibliyini qeyd edib. Sədr Milli Məclisin beynəlxalq əlaqələrini daha da inkişaf etdirmək üçün qanunverici orqanlar arasında əməkdaşlığın genişləndirilməsinə və möhkəmləndirilməsinə xidmət edən birgə təşəbbüslərin reallaşdırılmasına dəstək verilməsini, qanun yaradıcılığı sahəsində təcrübə mübadiləsinə xüsusi diqqət ayrılmasını, beynəlxalq parlament təşkilatları ilə birgə fəaliyyətin gücləndirilməsinin əhəmiyyətini vurğulayıb.

Görüşlərdə Azərbaycanın Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ötən il 44 günlük Vətən müharibəsində əldə etdiyi şanlı Zəfərdən sonra bölgədə yaranan yeni reallıqların beynəlxalq təşkilatlara, dövlət qurumlarına və həmin ölkələrin ictimaiyyət nümayəndələrinə çatdırılmasının vacibliyindən də söhbət açılıb. Həmçinin Azərbaycan Milli Məclisi ilə səfirlərin çalışdıqları xarici ölkələrin qanunverici orqanları arasındakı əməkdaşlığın mövcud durumu və inkişaf perspektivləri müzakirə olunub.

## Azərbaycanın müdafiə naziri Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə görüşüb



**“IDEF - 2021” Beynəlxalq Müdafiə Sərgisində iştirak etmək üçün İstanbulda səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Yaşar Güler ilə görüşüb.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə iki ölkə arasında hərbi-texniki əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

## *Müdafiə Nazirliyi:* “Ermənistan ordusunun bölmələri mövqelərimizi atəşə tutub”

Ermənistan silahlı qüvvələrinin bölmələri avqustun 17-si saat 21:55-dən avqustun 18-i 01:00-dək fasilələrlə Basarkeçər rayonunun Basarkeçər və Şişqaya yaşayış məntəqələrində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun İstisu və Gədəbəy rayonunun Qalakənd yaşayış məntəqələri istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Ordusunun şəxsi heyəti arasında itki yoxdur.

Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

## Azərbaycan Ordusu bölmələrinin guya yanğınsöndürən maşına atəş açması barədə məlumat yalandır

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ermənistan mətbuatının avqustun 17-si saat 20:40-da yanğın baş verən əraziyə alovu söndürmək məqsədilə gələn yanğınsöndürmə maşınına Azərbaycan Ordusunun bölmələri tərəfindən guya atəş açılması barədə yaydığı məlumatlara münasibət bildirib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda qeyd edilib: “Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisindəki Qaybalı yaşayış məntəqəsi tərəfdə, dağətəyi ərazidəki quru otlaq sahəsində saat 18.00 radələrində başlayan yanğın bu istiqamətdə hündürlükdə yerləşən bölmələrimiz tərəfindən vizual müşahidə olunub. Yanğının genişlənməməsi və vaxtında söndürülməsi məqsədilə Rusiya sülhməramlılarına dərhal məlumat verilib.

Bildiririk ki, bu istiqamətdə, xüsusilə də yanğınsöndürən maşına bölmələrimiz tərəfindən guya atəş açılması barədə qarşı tərəfin yaydığı məlumat yalandır və belə bir fakt Rusiya sülhməramlıları tərəfindən də qeydə alınmayıb”.

## Zirehli texnikaların ekipajları döyüş vərdişlərini təkmilləşdirirlər

Cari ilin döyüş hazırlığı planına uyğun olaraq, zirehli transportyorların (ZTR) ekipajları döyüş vərdişlərini təkmilləşdirirlər.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ümumqoşun poliqonlarında keçirilən təlimlər zamanı bölmələrin şəxsi heyəti ZTR ekipajları ilə qarşılıqlı əlaqədə müxtəlif döyüş tapşırıqlarını uğurla icra edirlər.

Məşqlərin əsas məqsədi şəxsi heyətin döyüş hazırlığının artırılması, döyüş maşınlarının çətin keçilən ərazilərdə idarə edilməsi və real döyüş şəraitində tətbiqi üzrə peşəkarlığın yüksəldilməsidir.



## Azərbaycan Sərhəd Mühafizəsinin 102 illiyi münasibətilə təntənəli mərasim










Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində ölkəmizin tarixi Zəfərindən ilhamlanan sərhədçilər Azərbaycan Sərhəd Mühafizəsinin 102 illik şanlı tarixinin qələbəli səhifələrini ən yüksək əhvali-ruhiyyə, Azərbaycan dövlətçiliyinə xidmətdən irəli gələn qürur hissi ilə qarşılayırlar.

Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, DSX-nin rəhbərliyi və şəxsi heyəti Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin xatirəsini ehtiramla anıb, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Sonra görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi hörmətlə yad edilib.

Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə həlak olmuş igid oğulların xatirəsi anılıb, “Əbədi məşəl” abidəsinin önünə əklil qoyulub.

Dövlət Sərhəd Xidmətinin Aparatında Azərbaycan Sərhəd Mühafizəsinin 102-ci ildönümü münasibətilə təntənəli mərasim keçirilib.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev çıxış edərək Azərbaycanın Sərhəd Mühafizəsinin 102-ci ildönümünü böyük təntənə ilə qeyd edən qalib ölkənin sərhədçilərini peşə bayramı münasibətilə təbrik edib.

Dövlətimizin müstəqilliyinin keşiyində hər zaman şərəflə dayanan Azərbaycan sərhədçilərinin 44 günlük haqq savaşında da Azərbaycan tarixinin ən böyük sərkərdəsi, Müzəffər Ali Baş Komandanımız tərəfindən qoyulmuş döyüş tapşırıqlarını uğurla yerinə yetirmələri, Vətən müharibəsinin ilk günündən Füzuli rayonu ərazisindəki təmas xəttindən Ermənistanla dövlət sərhədinədək böyük bir ərazini azad etmələri, 24 saat ərzində 105 kilometr məsafədə ildırımsürətli hücumla düşmənə sarsıdıcı zərbələr endirmələri, Qədim Xudafərin körpüsündə, Zəngilan rayonunun Ağbənd qəsəbəsində və Zəngilan şəhərində dövlət bayrağımızı sancmaları, Ermənistanla dövlət sərhədində strateji yüksəklikləri azad etmələri, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının, Hadrut qəsəbəsinin və Şuşa şəhərinin, Ermənistanla dövlət sərhədində strateji yüksəkliklərin azad olunmasında Azərbaycan sərhədçilərinin qəhrəmanlıq və igidlik nümunələri göstərdikləri xüsusi vurğulanıb.

Dünyanın aparıcı ordularının, hərbi-strateji araşdırma mərkəzlərinin tədqiqat mövzusuna çevrilmiş, müasir müharibə aparma təcrübəsində yenilik kimi tarixə düşmüş AN-2 təyyarələrinin modifikasiya olunmaqla pilotsuz uçuş vasitəsi kimi tətbiqi, müasir hərbi texnologiyalar, kəşfiyyat və zərbəendirici pilotsuz uçuş aparatlarının sinxronlaşdırılmış istifadəsi nəticəsində müharibənin ilk günlərindən Qarabağ səmalarına hakim olmağımız qürurla vurğulanıb, “Açıq səma” adlı bu döyüş əməliyyatının xüsusilə vacib rol oynadığı qeyd edilib.

Dövlət Sərhəd Xidmətinin “Harop”, “Quzğun” pilotsuz uçuş aparatlarının peşəkar tətbiqi nəticəsində düşmənin strateji əhəmiyyətli hədəfləri, o cümlədən “Toçka-U”, “Elbrus” (SKAD) operativ-taktiki raket kompleksləri, “S-300”, “KRUQ”, “OSA” “KUB”, “TOR” zenit-raket kompleksləri, radio elektron-mübarizə stansiyaları, tankları, zirehli döyüş maşınları və digər texnikası, komanda idarəetmə məntəqələrinin məhv edildiyi, ümumilikdə 290 düşmən hədəfinin, çoxsaylı canlı qüvvəsinin zərərsizləşdirildiyi diqqətə çatdırılıb.

Vətən müharibəsində işğalçı düşmən qüvvələrinə qarşı fədakarlıqla döyüşən sərhədçilərin döyüş məharətini Müzəffər Ali Baş Komandanımızın xüsusi qiymətləndirdiyi, sərhədçilərin “Vətən Müharibəsi Qəhrəmanı” adı ilə, orden və medallarla təltif olunduğu, Vətən yolunda qələbə sevincini bizə yaşadan şəhidlərimizin fədakarlığının qədirbilən xalqımızın yaddaşından silinməyəcəyi vurğulanıb, səngərdə və sərhəddə böyük əzmlə xidmət aparan sərhədçilərin dövlət sərhədində üçrəngli dövlət bayrağımız altında dövləti maraqları ən yüksək səviyyədə müdafiə edəcəkləri ifadə olunub.

Dövlət Sərhəd Xidmətinin yaradıcısı dahi Öndər Heydər Əliyevin və Vətən müharibəsində həlak olmuş qəhrəman oğulların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin avqustun 17-də imzaladığı sərəncamlar şəxsi heyətə elan edilib, zabitlərə ali hərbi rütbələr təqdim olunub. Həmçinin Azərbaycan Respublikasının ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpası zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etmiş, döyüşlər zamanı şəxsi igidlik və şücaət göstərdiklərinə görə təltif olunmuş hərbi qulluqçulara orden və medallar təqdim olunub.

Tədbir çərçivəsində Dövlət Sərhəd Xidməti rəisinin Silahlı Qüvvələrin ehtiyatına buraxılmış sabiq müavinləri general-leytenant Azad Ələkbərov və general-leytenant İsmayıl Əkbərov Dövlət Sərhəd Xidmətinin döyüş bayrağı ilə vidalaşıblar.

## DSX-nin Aviasiya Qüvvələrində Vətən müharibəsi şəhidlərinin xatirəsinə ucaldılmış abidənin açılış mərasimi keçirilib







Dövlət Sərhəd Xidmətinin (DSX) Aviasiya Qüvvələrində Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçuların xatirəsinin əbədiləşdirilməsi məqsədilə ucaldılmış abidənin açılış mərasimi keçirilib.

DSX-nin Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, abidənin önünə əklilin qoyulması və Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə Dövlət Sərhəd Xidməti rəisinin müavini general-leytenant Əfqan Nağıyev çıxış edərək DSX-nin rəisi general-polkovnik Elçin Quliyevin təbrik telefonoqramını şəxsi heyətə çatdırıb, mərasimin Azərbaycan Sərhəd Mühafizəsinin yaranmasının 102-ci ildönümünə təsadüf etməsi ilə əlamətdar olmasını, sərhədçilərin builki peşə bayramını müzəffər ölkənin qalib əsgərləri olaraq ən yüksək əhvali-ruhiyyə ilə qarşıladıqlarını vurğulayıb.

Çıxışda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə “Dəmir yumruq” əməliyyatı nəticəsində ərazi bütövlüyümüzün bərpa olunduğu, Vətən müharibəsində Müzəffər Ali Baş Komandanımızın bütün döyüş tapşırıqlarının sərhədçilər tərəfindən uğurla icra edildiyi, ildırımsürətli hücumla düşmənə sarsıdıcı zərbələr endirildiyi qeyd olunub.

Dünyanın aparıcı ordularının, hərbi-strateji araşdırma mərkəzlərinin tədqiqat mövzusuna çevrilmiş, müasir müharibə aparma təcrübəsində yenilik kimi tarixə düşmüş AN-2 təyyarələrinin modifikasiya olunmaqla tətbiqi, müasir hərbi texnologiyalar, kəşfiyyat və zərbəendirici pilotsuz uçuş aparatlarının sinxronlaşdırılmış istifadəsi nəticəsində müharibənin ilk günlərindən Qarabağ səmalarına hakim olmağımız qürurla vurğulanıb.

Dövlət Sərhəd Xidmətinin “Harop”, “Quzğun” pilotsuz uçuş aparatlarının peşəkar tətbiqi nəticəsində düşmənin strateji əhəmiyyətli hədəfləri, o cümlədən “Toçka-U”, “Elbrus” (SCAD) operativ-taktiki raket kompleksləri, “S-300”, “KRUQ”, “OSA” “KUB”, “TOR” zenit-raket kompleksləri, radio elektron-mübarizə stansiyaları, tankları, zirehli döyüş maşınları və digər texnikası, komanda idarəetmə məntəqələrinin məhv edildiyi, ümumilikdə 290 düşmən hədəfinin, çoxsaylı canlı qüvvəsinin zərərsizləşdirildiyi qeyd olunub.

Torpaqlarımızın azad olunması uğrunda gedən döyüş əməliyyatlarında Dövlət Sərhəd Xidmətinin həlak olmuş 47 hərbi qulluqçusu arasında pilot zabitlərimiz - mayor Qasımov Abbas Rza oğlu və baş leytenant Gözəlov Xalid Həsən oğlunun da olmaları, DSX-nin Aviasiya Qüvvələrində şəhidlərimizin xatirəsinə və Vətən müharibəsinin əfsanəsinə çevrilmiş AN-2 təyyarəsinə abidələrin ucaldılmasının şəhidlərimizin rəşadət və qəhrəmanlıq salnaməsinə yüksək ehtiramın ifadəsi, döyüş qüdrətimizin təcəssümü olduğu bildirilib.

Tədbirdə Vətən müharibəsində şücaət və qəhrəmanlıq göstərdiklərinə, Xocavənd, Füzuli, Cəbrayıl, Zəngilan rayonları və Şuşa şəhərinin azad olunmasında fərqləndiklərinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən təltif edilmiş sərhədçilərə orden və medallar təqdim olunub.

## “YAŞAT” Fondunun Himayəçilik Şurasının növbəti iclası keçirilib

Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu - “YAŞAT” Fondunun Himayəçilik Şurasının növbəti iclası keçirilib.



Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, agentliyin sədri Ülvi Mehdiyev fondun bugünə qədər həyata keçirdiyi tədbirlər barədə məlumat verib. Həmçinin gələcək fəaliyyətə dair planlar, nəzərdə tutulan məsələlərdən bəhs edilib.

Himayəçilik Şurasının üzvləri cari məsələlər, həmçinin gələcək fəaliyyətə dair təkliflərini diqqətə çatdırıblar.

Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi fondun vəsaitinin sərəncamçısı müəyyən edilib. Fondun vəsaitinin formalaşdırılmasına və idarə olunmasına ümumi nəzarəti isə Azərbaycan Respublikası Prezidentinin yaratdığı Himayəçilik Şurası həyata keçirir.

## “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında”, “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında”, “Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında”, “Məhkəmələr və hakimlər haqqında”, “Əhalinin sağlamlığının qorunması haqqında”, “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Uşaq hüquqları haqqında”, “Yol hərəkəti haqqında”, “Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında”, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında”, “Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında”, “Avtomobil yolları haqqında”, “Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında”, “Psixiatriya yardımı haqqında”, “İcbari sığortalar haqqında” və “Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 88; 2001, № 11, maddələr 669, 676; 2002, № 1, maddə 2, № 5, maddələr 237, 243; 2006, № 6, maddə 478; 2007, № 8, maddə 756, № 12, maddə 1197; 2008, № 7, maddə 602, № 8, maddə 701; 2009, № 7, maddə 519; 2010, № 3, maddə 171; 2013, № 3, maddə 229, № 5, maddə 470; 2014, № 11, maddə 1336; 2015, № 5, maddə 497; 2016, № 1, maddə 37; 2017, № 1, maddə 29; 2018, № 12 (I kitab), maddə 2506; 2020, № 7, maddə 826) 2-ci maddəsinin birinci hissəsindən “, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar” sözləri çıxarılsın.

**Maddə 2.** “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 106; 2001, № 12, maddə 731; 2002, № 1, maddə 4; 2004, № 8, maddə 606, № 9, maddə 666; 2007, № 3, maddə 206, № 6, maddələr 560, 598, № 11, maddə 1078; 2008, № 8, maddə 699, № 11, maddə 960; 2009, № 6, maddə 395; 2010, № 4, maddə 276; 2013, № 12, maddə 1497; 2018, № 3, maddə 399, № 5, maddə 886, № 12 (I kitab), maddə 2481; 2019, № 7, maddə 1194; 2020, № 4, maddə 394, № 7, maddə 826) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 30-4-cü maddənin ikinci hissəsi üzrə:

2.1.1. 2-ci bənd üzrə:

1. birinci abzasdan “dərəcəsi” sözü çıxarılsın;

2. ikinci abzasda “I dərəcə” sözləri “orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə “ sözləri ilə əvəz edilsin;

3. üçüncü abzasda “II dərəcə” sözləri “orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə “ sözləri ilə əvəz edilsin;

4. dördüncü abzasda “III dərəcə” sözləri “orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə “ sözləri ilə əvəz edilsin;

2.1.2. 3-cü bənddən “dərəcəsi” sözü çıxarılsın;

2.2. 30-5-ci maddənin beşinci hissəsində “nəticəsi olan əlillik dərəcəsi daha ağır əlillik dərəcəsi ilə əvəz olunduqda” sözləri “nəticəsində müəyyən edilmiş orqanizmin funksiyalarının pozulmasının daha yüksək faizi müəyyən edildikdə” sözləri ilə əvəz edilsin.

**Maddə 3.** “Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 399; 2001, № 12, maddə 736; 2005, № 8, maddə 692, № 10, maddə 872; 2006, № 12, maddə 1007; 2008, № 6, maddə 462, № 11, maddə 960; 2011, № 2, maddə 71; 2013, № 12, maddə 1491; 2015, № 2, maddə 73; 2016, № 3, maddə 415; 2017, № 5, maddə 686; 2019, № 1, maddə 33, № 11, maddə 1691; 2020, № 7, maddə 826) 5-ci maddəsinin birinci hissəsinin “ç” bəndində aşağıdakı dəyişikliklər edilsin:

3.1. ikinci abzasda “I dərəcə əlilliyə” sözləri “orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına” sözləri ilə əvəz edilsin;

3.2. üçüncü abzasda “II dərəcə əlilliyə” sözləri “orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına” sözləri ilə əvəz edilsin;

3.3. dördüncü abzasda “III dərəcə əlilliyə” sözləri “orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına” sözləri ilə əvəz edilsin.

**Maddə 4.** “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413; 1999, № 5, maddə 284, № 7, maddə 396, № 10, maddə 570; 2001, № 5, maddə 292, № 6, maddə 379, № 7, maddə 455; 2002, № 1, maddə 4, № 12, maddə 706; 2003, № 6, maddə 278; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 199, № 8, maddələr 597, 598, № 9, maddə 669; 2005, № 1, maddə 7, № 8, maddə 686; 2006, № 1, maddə 4, № 12, maddə 1005; 2007, № 5, maddələr 439, 446, № 7, maddə 712, № 11, maddə 1078, № 12, maddə 1222; 2008, № 3, maddə 163, № 7, maddə 609; 2009, № 2, maddə 46, № 11, maddə 878; 2010, № 7, maddə 596, № 10, maddə 842; 2011, № 4, maddə 265; 2013, № 1, maddə 21; 2014, № 2, maddə 85, № 7, maddələr 782, 784; 2015, № 2, maddə 98, № 4, maddə 346, № 5, maddə 483, № 11, maddə 1286; 2016, № 6, maddə 1004, № 11, maddə 1789, № 12, maddə 2033; 2017, № 6, maddə 1034, № 7, maddə 1305, № 11, maddə 1965; 2018, № 1, maddə 12, № 3, maddə 395, № 5, maddə 888, № 7 (I kitab), maddə 1442, № 12 (I kitab), maddə 2525; 2019, № 1, maddə 22, № 7, maddələr 1196, 1206, № 12, maddə 1895; 2020, № 7, maddə 826) 113-cü maddəsinin üçüncü hissəsinin ikinci cümləsinə “orqanının” sözündən sonra “müəyyən etdiyi orqanın (qurumun)” sözləri əlavə edilsin və həmin cümlədə “müvafiq dərəcədən” sözləri “onun orqanizminin funksiyalarının pozulması faizinə uyğun” sözləri ilə əvəz edilsin.

**Maddə 5.** “Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 497; 1999, № 5, maddə 285; 2001, № 3, maddələr 141, 142, 143, 144, № 11, maddələr 672, 687, 693; 2002, № 5, maddələr 240, 244, № 6, maddə 328; 2003, № 6, maddə 256; 2004, № 4, maddə 199, № 6, maddə 396, № 7, maddə 507; 2006, № 2, maddə 66, № 12, maddə 1028; 2007, № 6, maddə 560, № 11, maddə 1052, № 12, maddə 1197; 2008, № 7, maddə 602; 2009, № 2, maddə 46, № 12, maddə 949; 2010, № 11, maddə 962; 2011, № 2, maddələr 70, 71, № 7, maddə 616; 2012, № 6, maddə 510; 2013, № 11, maddələr 1285, 1305, 1316; 2015, № 2, maddə 104, № 4, maddə 345, № 6, maddə 681; 2016, № 2, maddə 189, № 4, maddə 658; 2017, № 6, maddə 1060, № 7, maddə 1262; 2019, № 2, maddə 180, № 9, maddə 1484; 2020, № 5, maddə 521, № 7, maddə 826, № 12 (I kitab), maddə 1425) 16-cı maddəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. üçüncü hissədə “sağlamlıq imkanları məhdud uşaqları” sözləri “18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsləri” sözləri ilə əvəz edilsin;

5.2. beşinci hissədə “sağlamlıq imkanlarının məhdudluğu” sözləri “əlilliyi” sözü ilə əvəz edilsin.

**Maddə 6.** Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 14; 2001, № 3, maddələr 138, 145, 146, 147, № 12, maddələr 731, 745; 2002, № 6, maddə 328, № 8, maddə 464; 2004, № 2, maddə 57, № 11, maddə 886; 2005, № 7, maddələr 576, 588, № 10, maddə 871; 2006, № 4, maddə 312, № 11, maddə 933; 2007, № 8, maddə 756, № 11, maddə 1078; 2008, № 7, maddə 602, № 8, maddə 695, № 12, maddə 1048; 2010, № 6, maddə 482; 2011, № 2, maddə 71; 2015, № 5, maddə 501, № 10, maddə 1086, № 11, maddə 1250; 2016, № 1, maddə 16; 2017, № 3, maddə 328, № 12 (I kitab), maddə 2207; 2018, № 12 (I kitab), maddə 2488; 2019, № 2, maddə 180; 2020, № 6, maddə 669, № 7, maddə 827) ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında Əsasnamə”nin 72-ci maddəsinin ikinci hissəsinin “z” bəndinin dördüncü abzasının birinci cümləsində “birinci və ikinci dərəcə əlilliyi olan” sözləri “orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin.

**Maddə 7.** “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 484; 2001, № 3, maddə 143, № 11, maddələr 676, 687, № 12, maddə 731; 2002, № 5, maddə 241, № 6, maddə 328; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 7, maddə 507; 2006, № 2, maddə 75; 2007, № 6, maddə 560; 2008, № 7, maddə 602; 2010, № 2, maddə 70, № 4, maddə 275; 2013, № 11, maddə 1317; 2015, № 5, maddə 484; 2016, № 6, maddə 968; 2017, № 7, maddə 1263; 2019, № 1, maddə 9, № 11, maddə 1684, № 12, maddələr 1881, 1908; 2020, № 6, maddə 670, № 7, maddə 827, № 11, maddə 1332) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 35-ci maddənin ikinci hissəsində “uşaqların sağlamlıq imkanları məhdudluğunun” sözləri “uşaqlar arasında əlilliyin” sözləri ilə əvəz edilsin;

7.2. 36-cı maddə üzrə:

7.2.1. adında “Sağlamlıq imkanları məhdud uşağa” sözləri “18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsə” sözləri ilə əvəz edilsin;

7.2.2. birinci hissədə “Sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa” sözləri “18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsə” sözləri ilə, “Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş” sözləri “Sosial müavinətlər haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq” sözləri ilə, “və uşağa” sözləri “və həmin şəxsə” sözləri ilə əvəz edilsin;

7.2.3. ikinci hissədə “qanunvericilikdə müəyyən edilən qaydada sağlamlıq imkanlarının məhdudluğu” sözləri “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikası Qanununun 3.1-ci maddəsinə uyğun olaraq əlillik” sözləri ilə əvəz edilsin.

**Maddə 8.** “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 564; 2001, № 5, maddə 298, № 11, maddələr 676, 698; 2002, № 1, maddə 9, № 8, maddə 463; 2003, № 8, maddə 424; 2004, № 2, maddə 57, № 11, maddə 901; 2005, № 4, maddə 277, № 10, maddə 874, № 11, maddə 993; 2006, № 12, maddə 1027; 2007, № 6, maddə 560, № 11, maddələr 1053, 1091; 2008, № 2, maddə 49, № 6, maddələr 453, 463, № 7, maddə 602; 2009, № 2, maddə 47, № 4, maddə 210, № 12, maddə 948; 2010, № 7, maddə 598; 2011, № 2, maddə 71, № 4, maddə 255, № 6, maddə 469, № 12, maddə 1097; 2012, № 5, maddə 402, № 7, maddə 671; 2013, № 4, maddələr 362, 363, № 7, maddə 795, № 11, maddələr 1295, 1298; 2014, № 4, maddələr 343, 346, № 5, maddə 467, № 11, maddə 1352; 2015, № 1, maddə 2, № 2, maddələr 76, 79, 105, № 5, maddə 502, № 6, maddə 686, № 11, maddələr 1256, 1276; 2016, № 11, maddələr 1758, 1784, 1795, № 12, maddə 1993; 2017, № 2, maddələr 138, 150, № 5, maddə 727, № 8, maddə 1507, № 10, maddə 1774, № 12 (I kitab), maddə 2215; 2018, № 2, maddələr 143, 157, № 4 maddə 645, № 6, maddələr 1165, 1192, № 7 (I kitab), maddələr 1432, 1436, 1439; 2019, № 1, maddə 46, № 6, maddə 997, № 7, maddə 1183, № 8, maddə 1376; 2020, № 5, maddə 521, № 7, maddələr 827, 847, № 12 (I kitab), maddə 1425; Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli 269-VIQD nömrəli və 23 aprel tarixli 303-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 1-ci maddə üzrə:

8.1.1. 28-ci bənddə “arabalar” sözü “açıq məkanda istifadə üçün mexaniki təkərli oturacaq” sözləri ilə əvəz edilsin;

8.1.2. 36-cı bənddə “mühərriksiz arabalarda” sözləri “açıq məkanda istifadə üçün mexaniki təkərli oturacaqda” sözləri ilə və “uşaq və ya əlilliyi olan şəxs üçün araba” sözləri “uşaq üçün araba və ya əlilliyi olan şəxs üçün açıq məkanda istifadə üçün mexaniki təkərli oturacağı” sözləri ilə əvəz edilsin;

8.1.3. 37-ci bənddən “əlilliyi olan şəxs üçün arabalar istisna olmaqla,” sözləri çıxarılsın;

8.2. 9-cu maddənin III hissəsindən “, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların” sözləri çıxarılsın;

8.3. 40-cı maddənin I hissəsinin 1-ci və 3-cü bəndlərində “mühərriksiz arabalarda” sözləri “açıq məkanda istifadə üçün mexaniki təkərli oturacaqlarda” sözləri ilə əvəz edilsin;

8.4. 72-ci maddə üzrə:

8.4.1. birinci hissənin 5-ci bəndində “I və II dərəcə əlilliyi olan” sözləri “orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin;

8.4.2. Qeyd hissəsində “I və II dərəcə əlilliyi olan” sözləri “orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş” sözləri ilə, “əlillik dərəcəsini” sözləri “orqanizmin funksiyalarının pozulması faizini” sözləri ilə əvəz edilsin.

**Maddə 9.** “Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 2, maddə 56; 2002, № 6, maddə 328; 2004, № 3, maddə 133; 2008, № 7, maddə 602; 2017, № 7, maddə 1281; 2018, № 3, maddə 370; 2020, № 7, maddə 827) 22-ci maddəsinin ikinci hissəsinin birinci cümləsindən “, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaq” sözləri çıxarılsın.

**Maddə 10.** “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 477; 2001, № 11, maddə 687, № 12, maddələr 731, 736; 2002, № 5, maddə 241, № 6, maddə 328; 2006, № 2, maddə 75; 2007, № 6, maddə 561, № 12, maddə 1197; 2008, № 7, maddə 602; 2010, № 4, maddə 275; 2013, № 5, maddə 477; 2016, № 11, maddə 1765; 2018, № 5, maddə 872, № 12 (I kitab), maddə 2505; 2019, № 8, maddə 1382, № 12, maddə 1908; 2020, № 5, maddə 507, № 6, maddə 670, № 7, maddə 827, № 11, maddə 1330, № 12 (I kitab), maddə 1425) aşağıdakı dəyişikliklər edilsin:

10.1. 1-ci maddənin birinci hissəsi üzrə:

10.1.1. on birinci abzasda “I və II dərəcə əlilliyi olan” sözləri “orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin;

10.1.2. on altıncı abzasda “sağlamlıq imkanları məhdud uşaqlar” sözləri “18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər” sözləri ilə əvəz edilsin;

10.2. 7-ci maddənin ikinci hissəsinin ikinci cümləsində “sağlamlıq imkanları məhdud 18 yaşınadək” sözləri “18 yaşınadək əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin.

**Maddə 11.** “Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 10, maddə 569; 2001, № 12, maddə 736; 2005, № 8, maddə 692; 2006, № 11, maddə 928; 2007, № 6, maddə 560; 2008, № 8, maddə 695, № 11, maddə 960; 2009, № 12, maddə 966; 2013, № 4, maddə 357; 2014, № 1, maddə 8, № 4, maddə 337; 2015, № 2, maddə 75, № 3, maddə 251; 2020, № 7, maddə 827) 5-ci maddəsinin ikinci hissəsinin “c” bəndində aşağıdakı dəyişikliklər edilsin:

11.1. ikinci abzasda “I dərəcə” sözləri “orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə” sözləri ilə əvəz edilsin;

11.2. üçüncü abzasda “II dərəcə” sözləri “orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə” sözləri ilə əvəz edilsin;

11.3. dördüncü abzasda “III dərəcə” sözləri “orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə” sözləri ilə əvəz edilsin.

**Maddə 12.** “Avtomobil yolları haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 125; 2001, № 12, maddələr 731, 736; 2004, № 11, maddə 901; 2006, № 6, maddə 478; 2007, № 5, maddə 436, № 10, maddə 938; 2008, № 5, maddə 348, № 7, maddə 602; 2012, № 6, maddə 506; 2013, № 6, maddələr 599, 624; 2014, № 4, maddə 341, № 7, maddə 775; 2016, № 2 (I kitab), maddə 200, № 12, maddələr 1994, 1995; 2017, № 5, maddə 720, № 12 (I kitab), maddə 2229; 2018, № 1, maddə 20, № 11, maddə 2223; 2019, № 1, maddə 11, № 6, maddə 989, № 7, maddə 1183; 2020, № 7, maddə 828, № 12 (I kitab), maddə 1425) 2-ci maddəsinin üçüncü hissəsindən “, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların” sözləri çıxarılsın.

**Maddə 13.** “Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 484; 2001, № 12, maddə 736; 2002, № 6, maddə 328; 2005, № 12, maddə 1093; 2008, № 7, maddə 602; 2016, № 4, maddə 649; 2017, № 7, maddə 1283; 2018, № 3, maddə 372; 2020, № 7, maddə 828) 4-cü maddəsinin birinci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

13.1. beşinci abzasdan “, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların” sözləri çıxarılsın;

13.2. altıncı abzasdan “, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar” sözləri çıxarılsın.

**Maddə 14.** “Psixiatriya yardımı haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 569; 2011, № 11, maddə 990; 2012, № 5, maddə 407; 2016, № 4, maddə 659; 2020, № 7, maddə 828, № 12 (I kitab), maddə 1425) 15.0.3-cü maddəsindən “, o cümlədən sağlamlıq imkanlarının məhdudluğunun” sözləri çıxarılsın.

**Maddə 15.** “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 788; 2013, № 7, maddə 776; 2014, № 7, maddə 778, № 12, maddə 1523; 2016, № 2 (I kitab), maddə 185, № 3, maddə 414; 2017, № 2, maddə 149, № 7, maddə 1287; 2019, № 1, maddələr 27, 48; 2020, № 7, maddə 831) aşağıdakı dəyişikliklər edilsin:

15.1. 14.2.3-cü maddənin birinci abzasından “, o cümlədən sağlamlıq imkanları məhdudluğunun” sözləri çıxarılsın;

15.2. 14.2.3.1 - 14.2.3.3-cü maddələr aşağıdakı redaksiyada verilsin:

“14.2.3.1. orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə - 80 faiz;

14.2.3.2. orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə - 60 faiz;

14.2.3.3. orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə - 40 faiz;”;

15.3. 14.2.4-cü maddədən “və ya sağlamlıq imkanları məhdudluğu” sözləri çıxarılsın.

**Maddə 16.** “Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 4, maddə 272; 2019, № 11, maddə 1685; 2020, № 7, maddə 831; Azərbaycan Respublikasının 2021-ci il 4 may tarixli 312-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

16.1. 4.1-ci maddədən “, o cümlədən 18 yaşınadək sağlamlıq imkanlarının məhdudluğu” sözləri çıxarılsın;

16.2. 9.2-ci maddə üzrə:

16.2.1. birinci cümlədən “, o cümlədən sağlamlıq imkanlarının məhdudluğu” sözləri çıxarılsın;

16.2.2. ikinci cümlədə “sağlamlıq imkanlarının məhdudluğu” sözləri “əlilliyi” sözü ilə əvəz edilsin;

16.3. 9.3-cü maddədən “, o cümlədən sağlamlıq imkanlarının məhdudluğu” sözləri çıxarılsın.

**Maddə 17.** Bu Qanun 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyun 2021-ci il*

## “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında”, “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında”, “Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında”, “Məhkəmələr və hakimlər haqqında”, “Əhalinin sağlamlığının qorunması haqqında”, “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Uşaq hüquqları haqqında”,”Yol hərəkəti haqqında”, “Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında”, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında”, “Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında”, “Avtomobil yolları haqqında”, “Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında”, “Psixiatriya yardımı haqqında”, “İcbari sığortalar haqqında” və “Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 22 iyun tarixli 351-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və Məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə” 1998-ci il 1 dekabr tarixli 30 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında”, “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında”, “Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında”, “Məhkəmələr və hakimlər haqqında”, “Əhalinin sağlamlığının qorunması haqqında”, “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Uşaq hüquqları haqqında”, “Yol hərəkəti haqqında”, “Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında”, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında”, “Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında”, “Avtomobil yolları haqqında”, “Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında”, “Psixiatriya yardımı haqqında”, “İcbari sığortalar haqqında” və “Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 22 iyun tarixli 351-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 113-cü maddəsinin üçüncü hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 113-cü maddəsinin üçüncü hissəsinin ikinci cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi qismində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi nəzərdə tutulur.

2. “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və Məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 1 dekabr tarixli 30 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 12, maddə 744; 2000, № 1, maddə 34; 2001, № 10, maddə 640; 2002, № 8, maddə 478; 2006, № 7, maddələr 590, 593; 2009, № 11, maddə 888; 2010, № 7, maddə 610; 2015, № 1, maddə 16, № 8, maddə 915; 2020, № 7, maddə 886) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 7.1-ci bəndə “yeddinci abzaslarında,” sözlərindən sonra “113-cü maddəsinin üçüncü hissəsinin ikinci cümləsində,” sözləri əlavə edilsin;

2.2. 7.8-ci bənddə “ və ikinci cümlələrində” sözləri “cümləsində” sözü ilə əvəz edilsin;

2.3. 7.9-cu bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 7.10-cu bənd əlavə edilsin:

“7.10. həmin Qanunun 113-cü maddəsinin üçüncü hissəsinin ikinci cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi qismində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi nəzərdə tutulur.”.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında”, “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında”, “Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında”, “Məhkəmələr və hakimlər haqqında”, “Əhalinin sağlamlığının qorunması haqqında”, “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Uşaq hüquqları haqqında”, “Yol hərəkəti haqqında”, “Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında”, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında”, “Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında”, “Avtomobil yolları haqqında”, “Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında”, “Psixiatriya yardımı haqqında”, “İcbari sığortalar haqqında” və “Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 22 iyun tarixli 351-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

4. Bu Fərmanın 1-ci və 2-ci hissələri 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 avqust 2021-ci il*

# "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərərçəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında", "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Onkoloji yardım haqqında", "Sosial xidmət haqqında", "Mədəniyyət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Məktəbəqədər təhsil haqqında", "Məşğulluq haqqında" və "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərərçəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, № 23-24, maddə 685; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 451; 1999, № 5, maddə 293; 2001, № 12, maddələr 731, 736; 2004, № 7, maddə 507; 2007, № 5, maddə 401, № 6, maddə 561, № 11, maddə 1078; 2008, № 7, maddə 602; 2019, № 3, maddə 379, № 5, maddə 797, № 8, maddə 1382, 2020, № 7, maddə 826; Azərbaycan Respublikasının 2021-ci il 23 aprel tarixli 302-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 6-cı maddə üzrə:

1.1.1. adından və birinci hissənin 4-cü bəndindən ", o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara" sözləri çıxarılsın;

1.1.2. birinci hissənin 7-ci bəndinin ikinci cümləsindən ", o cümlədən 18 yaşınadək sağlamlıq imkanları məhdudluğu" sözləri çıxarılsın;

1.1.3. birinci hissənin 18-ci bəndində ", əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar üçün sosial xidmət müəssisələri" sözləri "və əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələrində" sözləri ilə əvəz edilsin;

1.2. 11-ci maddənin üçüncü hissəsi aşağıdakı redaksiyada verilsin:

"Bu Qanunun 5-ci maddəsinin birinci hissəsinin 1-ci bəndində göstərilən şəxslərin əlilliyi Çernobıl qəzası nəticəsində əmələ gəldikdə, əlillik müddətsiz müəyyən edilir.";

1.3. 14-cü maddə üzrə:

1.3.1. adında "Əlillərin və sağlamlıq imkanları məhdud uşaqların" sözləri "Əlilliyi olan şəxslərin" sözləri ilə əvəz edilsin;

1.3.2. birinci hissənin birinci abzasından ", o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların" sözləri çıxarılsın;

1.3.3. birinci hissənin ikinci abzasında "I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud uşaqlara" sözləri "orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri ilə əvəz edilsin;

1.3.4. birinci hissənin üçüncü abzasında "II dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud uşaqlara" sözləri "orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri ilə əvəz edilsin;

1.3.5. birinci hissənin dördüncü abzasında "III dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud uşaqlara" sözləri "orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri ilə əvəz edilsin;

1.3.6. üçüncü hissədən ", o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara" sözləri çıxarılsın.

**Maddə 2.** "Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 6, maddə 413; 2008, № 7, maddə 602; 2014, № 11, maddə 1343; Azərbaycan Respublikasının 2021-ci il 23 aprel tarixli 303-VIQD nömrəli Qanunu) 15-ci maddəsinin üçüncü hissəsində "qanunvericilikdə müəyyən edilən qaydada sağlamlıq imkanlarının məhdudluğu" sözləri "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada əlillik" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 577; 2002, № 5, maddə 240; 2003, № 12 (I kitab), maddə 697; 2007, № 6, maddə 560, № 10, maddə 938; 2008, № 7, maddə 602; 2012, № 4, maddə 281; 2014, № 11, maddə 1372; 2015, № 11, maddə 1272; 2018, № 5, maddə 885, № 11, maddə 1684; 2020, № 7, maddə 828) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 16.5-ci maddədən ", o cümlədən sağlamlıq imkanlarının məhdudluğu" sözləri çıxarılsın;

3.2. 18.0.9-cu və 22.1-ci maddələrdən ", o cümlədən sağlamlıq imkanlarının məhdudluğu" sözləri çıxarılsın.

**Maddə 4.** "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 442; 2008, № 7, maddə 602; 2011, № 2, maddə 71; 2015, № 2, maddə 83; 2017, № 7, maddə 1258; 2019, № 5, maddə 797; 2020, № 6, maddə 664, № 7, maddə 828, № 11, maddə 1335; Azərbaycan Respublikasının 2021-ci il 23 aprel tarixli 303-VIQD nömrəli Qanunu) 10-cu maddəsində "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 19-cu maddəsinə uyğun olaraq" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən" sözləri ilə əvəz edilsin.

**Maddə 5.** "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 2, maddə 54; 2008, № 7, maddə 602; 2016, № 4, maddə 648; 2020, № 7, maddə 828) 5.1-ci maddəsindən ", o cümlədən 18 yaşınadək sağlamlıq imkanlarının məhdudluğu" sözləri çıxarılsın.

**Maddə 6.** "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 562; 2007, № 12, maddə 1218; 2008, № 7, maddə 602; 2020, № 7, maddə 829) 1.0.8-ci maddəsində "əlilliklə, o cümlədən 18 yaşınadək sağlamlıq imkanlarının məhdudluğu" sözləri "və ya əlilliyin müəyyən edilməsi" sözləri ilə əvəz edilsin.

**Maddə 7.** "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 563; 2008, № 7, maddə 602; 2016, № 4, maddə 650; 2020, № 7, maddə 829) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 4-cü maddənin birinci cümləsindən ", o cümlədən 18 yaşınadək sağlamlıq imkanlarının məhdudluğu" sözləri çıxarılsın;

7.2. 9.2-ci maddə üzrə:

7.2.1. birinci cümlədən ", o cümlədən sağlamlıq imkanlarının məhdudluğu" sözləri çıxarılsın;

7.2.2. ikinci cümlə aşağıdakı redaksiyada verilsin:

"İrsi qan xəstəliyi olan şəxslərin əlilliyi onlar 18 yaşına çatanadək müəyyən edildikdə, 18 yaşına çatdıqdan sonra bu şəxslərin əlilliyi müddətsiz müəyyən edilir.".

**Maddə 8.** "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1005; 2008, № 6, maddə 474, № 7, maddə 602; 2015, № 3, maddə 257; 2018, № 5, maddə 871; 2019, № 3, maddə 380; 2020, № 7, maddələr 829, 840) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 3-cü maddədə "birinci dərəcə əlilliyi olan şəxsə, 8 yaşına çatmamış uşağa və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa" sözləri "orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxsə, 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsə və ya 8 yaşına çatmamış uşağa" sözləri ilə əvəz edilsin;

8.2. 9.0.1-ci maddədən ", o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar" sözləri çıxarılsın.

**Maddə 9.** "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 76; 2007, № 10, maddə 933; 2008, № 6, maddələr 464, 475; 2013, № 1, maddə 19, № 6, maddə 618, № 11, maddələr 1240, 1306; 2017, № 7, maddə 1278; 2018, № 3, maddə 400, № 5, maddə 869; 2019, № 3, maddə 380, № 12, maddə 1893; 2020, № 7, maddə 829, № 11, maddə 1331, № 12 (I kitab), maddə 1452) aşağıdakı dəyişikliklər edilsin:

9.1. 1.0.2-ci maddədən ", o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar" sözləri çıxarılsın və həmin maddədə "sağlamlıq imkanlarının məhdudluğu" sözləri "əlilliyi" sözü ilə əvəz edilsin;

9.2. 4.0.1.3-cü, 9.1.2-ci və 11.1.3-cü maddələrdən "18 yaşından yuxarı əlilliyi olan şəxslərə" sözləri çıxarılsın;

9.3. 4.0.1.4-cü, 7.0.4-cü, 9.1.3-cü və 11.1.4-cü maddələr ləğv edilsin;

9.4. 4.0.1.14-cü, 9.1.11-ci və 11.1.8-ci maddələrdə "sağlamlıq imkanları məhdud 18 yaşınadək" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

9.5. 5.1-ci maddəyə "Bu Qanunun" sözlərindən sonra "5.2-ci maddəsi nəzərə alınmaqla, bu Qanunun" sözləri əlavə edilsin;

9.6. 5.2-ci maddədə "4.0.1.4-cü" sözləri "4.0.1.3-cü" sözləri ilə əvəz edilsin;

9.7. 5.3-cü maddədə "sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri ilə əvəz edilsin;

9.8. 7.0.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"7.0.3. əlilliyə görə müavinət - müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarı əsasında əlilliyi müəyyən edilmiş şəxsin əmək pensiyası hüququ olmadıqda;";

9.9. 7.0.10-4-cü maddədə "0-18 yaş arası sağlamlıq imkanları məhdud" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

9.10. 7.0.11-ci maddədə "sağlamlıq imkanlarının məhdudluğunu" sözləri "əlilliyini" sözü ilə əvəz edilsin;

9.11. 9.1.4.2-ci maddədə "sağlamlıq imkanlarının məhdudluğu" sözləri "əlilliyi" sözü ilə əvəz edilsin;

9.12. 9.2-ci maddədən ", o cümlədən sağlamlıq imkanlarının məhdudluğu" sözləri çıxarılsın.

**Maddə 10.** "Onkoloji yardım haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 656; 2008, № 7, maddə 602; 2020, № 7, maddə 830, № 12 (I kitab), maddə 1425) 9.2-ci maddəsindən ", o cümlədən sağlamlıq imkanlarının məhdudluğu" sözləri çıxarılsın və həmin maddədə "müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada" sözləri "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq" sözləri ilə əvəz edilsin.

**Maddə 11.** "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 3, maddə 191; 2019, № 11, maddə 1685; 2020, № 7, maddə 831) aşağıdakı dəyişikliklər edilsin:

11.1.7.1.2-ci maddədə "sağlamlıq imkanlarının məhdud" sözləri "əlilliyinin" sözü ilə əvəz edilsin;

11.2. 17.1-ci maddədən ", o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar" sözləri çıxarılsın;

11.3. 19.1-ci və 19.2.6-cı maddələrdən ", o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara" sözləri çıxarılsın.

**Maddə 12.** "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 78; 2015, № 11, maddə 1282; 2016, № 11, maddə 1751; 2017, № 11, maddə 1967; 2018, № 6, maddə 1175, № 11, maddə 2193; 2019, № 7, maddə 1183; 2020, № 7, maddə 831) 14.2.4-cü maddəsindən ", o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların" sözləri çıxarılsın.

**Maddə 13.** "Uşaqların icbari dispanserizasiyası haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 4, maddə 360; 2018, № 2, maddə 155; Azərbaycan Respublikasının 2021-ci il 4 may tarixli 312-VIQD nömrəli Qanunu) 3-cü maddəsində "sağlamlıq imkanları məhdudluğunun və" sözləri "əlilliyin," sözü ilə əvəz edilsin.

**Maddə 14.** "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1012; 2019, № 6, maddə 986, № 12, maddə 1881; 2020, № 6, maddə 664, № 7, maddələr 831, 851, № 11, maddə 1335) 8.9-cu maddəsinə "müharibəsi" sözündən sonra "və Vətən Müharibəsi" sözləri əlavə edilsin və həmin maddədə "bununla əlaqədar əlilliyi olan" sözləri "müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş" sözləri ilə, "I və II dərəcə əlilliyi olan" sözləri "orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin.

**Maddə 15.** "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1669; 2019, № 1, maddə 35, № 3, maddə 381, № 12, maddə 1892; 2020, № 1, maddə 1, № 5, maddə 521, № 7, maddə 831, № 9, maddə 1136; 2021, № 2, maddə 113) aşağıdakı dəyişikliklər edilsin:

15.1. 1.1.22-ci maddədən ", o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar" sözləri çıxarılsın və həmin maddədə "sağlamlıq imkanları məhdud 18 yaşınadək" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

15.2. 5.7-ci və 8.0.4-cü maddələrdə "əlilliyi, o cümlədən sağlamlıq imkanlarının məhdudluğu" sözləri ", əlilliyi" sözü ilə əvəz edilsin;

15.3. 24.9-cu və 25.5-ci maddələrdə "şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara" sözləri "şəxslərə" sözü ilə əvəz edilsin.

**Maddə 16.** "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1152; 2019, № 5, maddə 799, № 6, maddə 986, № 11, maddə 1685; 2020, № 5, maddələr 508, 514, № 7, maddələr 831, 851, № 11, maddələr 1323, 1335, № 12 (I kitab), maddə 1421; 2021, № 2, maddə 109; Azərbaycan Respublikasının 2021-ci il 4 may tarixli 312-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

16.1. 4.0.23-cü maddədə "o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların" sözləri "eləcə də sağlamlıq imkanları məhdud şəxslərin" sözləri ilə əvəz edilsin;

16.2. 20.7-ci maddədə "o cümlədən" sözləri "habelə" sözü ilə əvəz edilsin;

16.3. 20.8.2-ci maddədən "I, II və III dərəcə" sözləri çıxarılsın;

16.4. 20.8.4-cü maddədə "I dərəcə" sözləri "orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə" sözləri ilə əvəz edilsin.

**Maddə 17.** Bu Qanun 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyun 2021-ci il*

# "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərərçəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında", "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Onkoloji yardım haqqında", "Sosial xidmət haqqında", "Mədəniyyət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Məktəbəqədər təhsil haqqında", "Məşğulluq haqqında" və "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 22 iyun tarixli 349-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2001-ci il 19 iyul tarixli 540 nömrəli, "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2006-cı il 24 fevral tarixli 373 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərərçəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında", "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Onkoloji yardım haqqında", "Sosial xidmət haqqında", "Mədəniyyət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Məktəbəqədər təhsil haqqında", "Məşğulluq haqqında" və "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 22 iyun tarixli 349-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsində (hər iki halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 10-cu maddəsində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 10-cu maddəsində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Təhsil Nazirliyi nəzərdə tutulur;

1.4. "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası Qanununun 7.0.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.5. həmin Qanunun 7.0.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi qismində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikası Prezidentinin "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2001-ci il 19 iyul tarixli 540 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 477; 2012, № 12, maddə 1270; 2017, № 7, maddə 1330; 2018, № 10, maddə 2019; 2020, № 7, maddə 876, № 11, maddə 1362; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyun tarixli 1353 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bəndə "5.0.1-ci," sözlərindən sonra "10-cu (hər iki halda)," sözləri əlavə edilsin;

2.2. 2.2-1-ci bəndə "1.0.17-ci" sözlərindən sonra ",10-cu (birinci halda)" sözləri əlavə edilsin;

2.3. 2.7-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.8-ci bənd əlavə edilsin:

"2.8. həmin Qanunun 10-cu maddəsində ikinci halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Təhsil Nazirliyi nəzərdə tutulur.".

3. Azərbaycan Respublikası Prezidentinin "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2006-cı il 24 fevral tarixli 373 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 90, № 12, maddə 1034; 2007, № 1, maddə 7, № 10, maddə 942; 2008, № 5, maddələr 373, 374, № 8, maddə 727; 2011, № 7, maddə 633, № 12, maddə 1143; 2016, № 9, maddə 1466; 2019, № 7, maddə 1220; 2020, № 12 (I kitab), maddə 1498) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə "4.0.1.6-cı," sözlərindən sonra "7.0.3-cü," sözləri əlavə edilsin;

3.2. 2.4-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.5-ci bənd əlavə edilsin:

"2.5. həmin Qanunun 7.0.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi qismində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi nəzərdə tutulur.".

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə uyğun olaraq sağlamlıq imkanları məhdud şəxslərin stasionar müəssisələrdə olduqları dövrdə təhsilinin təşkili qaydasını üç ay müddətində müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.2. "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərərçəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında", "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Onkoloji yardım haqqında", "Sosial xidmət haqqında", "Mədəniyyət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Məktəbəqədər təhsil haqqında", "Məşğulluq haqqında" və "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 22 iyun tarixli 349-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

5. Bu Fərmanın 1-3-cü hissələri 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 avqust 2021-ci il*



# Əzəmətli Kəlbəcər qüdrətli Xilaskarı ilə görüşdü

*Əvvəli 1-ci səh.*

Kəlbəcərli məcburi köçkünlərin yurd həsrətini də elə Murov ovutmuşdu. Elə ki, Kəlbəcər düşürdü ürəklərinə, üz tuturdular Murova sarı. Heybətli Murova, onun zirvələrinə, dolama yollarına baxır, Kəlbəcərdən əsən mehi sinədolusu ciyərlərinə çəkir, bir az da olsa Kəlbəcər özləmlərinin üzərinə su çilənirdi. O da təsadüfi deyildi ki, məcburi köçkünlük illərində vəfat edən bütün kəlbəcərlilərin bu dünyadakı son diləyi də, üzü Murova sarı basdırılmaları barədə vəsiyyətləri olurdu...

Murov ürəyimizdə, könlümüzdə əbədi taxt quran, dəlicəsinə, İlahi eşqlə sevdiyimiz Kəlbəcərlə aramızdakı bağ idi...

İndi isə bizə Kəlbəcəri bəxş edən qüdrətli sərkərdəmiz İlham Əliyevi Murovun zirvəsində görmək qəlbimizdə təsvirəgəlməz hissləri coşdurmuş, sevincdən hönkür-hönkür ağlamışdıq...

Bu, dünyanın xoşbəxtliyi idi...

## Müzəffər sərkərdənin “Kəlbəcər bizimdir!” haqq nidası ürəyimizdəki paramparça Vətən eşqini sağaltdı

Kəlbəcərdən sonrakı yaşantımız tamamilə rəngsiz, boz olmuşdu. Bu sadəcə bütün məcburi köçkünlərin yaşadığı aclıq, yoxluq, maddi çətinliklərlə bağlı deyildi.

Bu, illər ərzində çəkdiyimiz mənəvi məhrumiyyətlərlə bağlıydı...

Heç zaman Kəlbəcərin yoxluğunu qəbul etmir, bu fikirlə barışmırdıq. Harada olurduqsa, hayana gedirdiksə, kəlbəcərliyəm deyirdik, qürur duyurduq bu adı səsləndirməkdən, bu adı eşitməkdən...

Kəlbəcər bizim üçün, sadəcə, ev tikib, yuva qurduğumuz yaşayış yeri anlamına gəlmirdi, İlahinin Yer üzündə təkrarsız yaratdığı ecazkar cənnət guşəsi canlanırdı hafizəmizdə...

O da var ki, Kəlbəcərə olan məhəbbətimiz yalnız onun füsunkar təbiətinin olmasına görə deyil. Kəlbəcər cadarlanmış torpaq, çopur qara daş parçası da olsaydı, fərq etməzdi, elə bizim üçün dünyanın ən dilbər guşəsi sayılacaqdı...

Bu da bir reallıqdır ki, biz Kəlbəcərsiz, Kəlbəcər də bizsiz bütöv yox, yarımçıqdır...

Ali Baş Komandan bizə bu bütövlüyümüzü ərməğan etdi...

2020-ci ilin 27 sentyabrı kəlbəcərlilərin diriliş, 25 noyabrı isə Kəlbəcərin qurtuluş gününə çevirdi...

Müzəffər sərkərdə İlham Əliyevin “Qarabağ Azərbaycandır!”, “Kəlbəcər bizimdir!” haqq nidası ürəyimizdəki paramparça Vətən eşqini sağaltdı...

## Kəlbəcərlilərə xoşbəxtliyi Baş Qəhrəmanımız İlham Əliyev bəxş etdi

O gün biz hamımız Ali Baş Komandanla addım-addım müqəddəs yurdumuzu gəzdik, hər daşı, cığırı, ürəyimizə, qəlbimizə hopan Kəlbəcərə gözüdolusu, fəxarətlə baxdıq.

Başı qarlı dağlarına çıxdıq, geniş meşələrində gəzdik, ucsuz çəmənliklərində azadə dolaşdıq...

Təbiət xəzinəsi Kəlbəcərimizlə fəxarət duyduq.

O da gözümüzdən qaçmadı ki, düşmən nə qədər çalışsa da dağ vüqarlı yurduma dov gələ bilməyib. Kafir düşmənin acığına, yenə də əvvəlki kimi bulaqları da, çayları da, şəlalələri də çağlayır, meşələrində quşları zümzümə edir, çəmənlərində güllər-çiçəklər min bir rəngə çalır.

Çünki Tanrının qüdrətindən var olan Kəlbəcərə murdar xislətli erməni heç nə edə bilməz və edə bilməyib...

Sadəcə, gücü ona çatıb ki, insan əli ilə tikilən binaları sökərək kərpiclərini daşıyıb və cənab Prezidentimizin də vurğuladığı kimi, özünə daxma tikib...

Tezliklə mənfurların sökdüyü doğma od-ocağımız əvvəlkindən də gözəl tikiləcək, qurulacaq və öz sahiblərinin ixtiyarına veriləcək.

İndi doğma yurdumda həyat qaynayır, heyvandarlıqla, arıçılıqla məşğul olan təsərrüfatlarımız Kəlbəcərdədir.

Və bütün Kəlbəcər eli də səbirsizliklə böyük qayıdışa hazırlaşır...

O da yaxındır ki, illər əvvəl ağlaya-ağlaya Murovdan üzü Gəncəyə çıxan köç karvanı gülə-gülə elə yenə də Murovla öz yurduna, Kəlbəcərinə dönəcək...

Bəli, illər sonra ilk dəfə, sinədolusu, qürurla, bütün dünyaya hayqırırıq ki, “Biz kəlbəcərlilər xoşbəxtik” və bu xoşbəxtliyi bizə Baş Qəhrəmanımız İlham Əliyev bəxş edib...

İlham Əliyev bütün kəlbəcərlilərin ürəyində bir kəlbəcərli kimi şah taxt qurub, biz onu kəlbəcərlimiz sanırıq. Elə avqustun 16-da Xilaskarımızın Kəlbəcərə səfərini də doğma yurdla Oğulun görüşü, qovuşması kimi dəyərləndirdik...

Xoş gəldin doğma yurduna, Xilaskarımız, Ali Baş Komandanımız!!!

***Yasəmən MUSAYEVA, “Azərbaycan”***

# Yeni növraq Laçına da gəldi

*Əvvəli 1-ci səh.*

Həm Kəlbəcər və Laçın rayonları arasında əlaqələr möhkəmlənəcək, - Laçın rayonunda aeroportun tikintisi nəzərdə tutulur, - eyni zamanda, Kəlbəcər-Göygöl-Gəncə istiqamətində gediş-gəliş daha da rahat olacaq. Cəmi 8-9 ay ərzində görülmüş işlər onu bir daha göstərir ki, bizim çox güclü iradəmiz var, siyasi qərarlar verildi, bütün güclər, texniki imkanlar səfərbər olundu, maliyyə vəsaiti təmin edildi... Bax, bu tunelin şəkli də burada göstərilir, çox rahat və təhlükəsiz bir yol olacaq. Qarabağ Azərbaycandır!”

Azərbaycan Prezidenti səfər çərçivəsində hava limanının təməlini də qoydu. Laçın rayonunun Qorçu kəndinin ərazisində inşa ediləcək hava limanı strateji əhəmiyyət daşıyır. Aeroport bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək, turizm potensialından istifadə edilməsinə səbəb olacaq. Hava limanı həm də işğaldan azad edilmiş tarixi torpaqlarımızda aparılan abadlıq-quruculuq işlərinin miqyasını göstərəcək, eyni zamanda rayonda logistik mərkəzlərin yaradılmasına fayda verəcək. Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşəcək aeroportunun uçuş-enmə zolağının uzunluğu 3 kilometr olacaq. 6 təyyarə dayanacağı olacaq aeroport həmçinin Kəlbəcər ərazisinə hava nəqliyyatı ilə gediş-gəlişi asanlaşdıracaq.

Prezident İlham Əliyev Laçın Beynəlxalq Hava Limanının təməlini qoyarkən bildirdi: “Demişdim ki, azad edilmiş torpaqlarda üç beynəlxalq hava limanı tikiləcək. Artıq Füzulidə və Zəngilanda bu işlərə start verildi. Füzuli Beynəlxalq Hava Limanı bu ilin sonuna, ya da gələn ilin əvvəlinə istismara tam hazır olacaq. Zəngilanda da işlərə start verildi, mən şəxsən Zəngilan Beynəlxalq Hava Limanının təməlini qoydum. Zəngilan hava limanının istifadəyə verilməsi tarixi yəqin ki, 2022-ci il olacaq. Kəlbəcər və Laçın rayonlarında, - mən müharibə başa çatandan sonra elan etmişdim, - yer axtarılacaq və beynəlxalq hava limanı tikiləcək. Yerin axtarışı, əlbəttə ki, çox vaxt apardı. Çünki Kəlbəcər və Laçın rayonlarının relyefi elədir ki, burada düzən yer tapmaq mümkün deyil. Baxmayaraq ki, hər iki rayonun çox geniş ərazisi var, - dağlar, meşələr, dərələr, təpələr, - düz yer, demək olar ki, yoxdur... Mən hesab edirəm ki, dünya tarixində belə relyefdə bəlkə də ilk dəfə hava limanı tikilir”.

Bəli, Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsi, bu ərazilərdə infrastrukturun bərpa olunması, yeni istehsal müəssisələrinin istifadəyə verilməsi, kənd və şəhərlərin dirçəldilməsi və nəhayət, əhalinin həmin yerlərə qayıtması hamının çoxdankı arzusu idi. İndi həmin arzu gerçəkləşir. Bununla belə, biz sayıqlığımızı da itirməməliyik. Azərbaycan Prezidenti də məhz bu amilləri nəzərə alaraq demişdir: “Biz daim hazır olmalıyıq, daim öz hərbi gücümüzü artırmalıyıq, hərbi infrastruktur yaratmalıyıq və yaradırıq, o cümlədən hava limanları bizim hərbi məqsədlərimizə də xidmət edəcək”.

***Məhəmməd NƏRİMANOĞLU, “Azərbaycan”***

# *Əlcəzair portalı:* “Prezident İlham Əliyev erməni vəhşiliyinin bütün dünyaya göstəriləcəyini deyib”

**Əlcəzairin “Əl Hərir” portalında “Prezident İlham Əliyev: Qarabağda törədilmiş erməni vəhşiliyini bütün dünyaya göstərəcəyik” sərlövhəli xəbər dərc edilib.**



AZƏRTAC-a istinadla dərc olunmuş xəbərdə qeyd olunur ki, Prezident İlham Əliyev Kəlbəcər şəhərində Dövlət bayrağının ucaldılması mərasimindəki çıxışında Ermənistanın kapitulyasiya aktını imzalayandan sonra Azərbaycandan vaxt istədiyini, Rusiya rəhbərliyinin də Kəlbəcərdən öz şələ-şülələrini yığışdıra bilməsi üçün onlara on gün vaxt verilməsi barədə müraciət etdiyini deyib. O əlavə edib ki, bizim humanistlik göstərərək noyabrın 25-nə qədər verdiyimiz vaxt ərzində ermənilər onlara məxsus olmayan, qanunsuz məskunlaşdıqları evləri yandırıb və dağıdıb, ağacları kəsiblər.

Ərəbdilli oxucuların diqqətinə çatdırılıb ki, Azərbaycanın dövlət başçısı zamanın dəyişməsinə rəğmən erməni faşizminin dəyişmədiyini bildirərək deyib: “Heç kim bunu unutmamalıdır. İndi onların bəzi hallarda göndərdikləri yaltaqlıqla dolu sözlərinə inanmaq olmaz. Buna inanmaq istəyən, bax, bu mənzərəni göz önünə gətirsin, dağıdılmış Ağdamı, Füzulini, Şuşanı, Kəlbəcəri, Laçını, Zəngilanı, Qubadlını, Cəbrayılı göz önünə gətirsin. Erməni vəhşilərin əməlləri göz qabağındadır. Amma onların hamiləri bunu görmək istəmirlər. Amma görməlidirlər və görəcəklər. Onların gözünə soxacağıq. Biz indi kitablar da dərc edirik, göstəriş vermişəm, təqdimatlar da olacaq. Xarici ölkələrdə sərgilər olacaq. Biz göstərəcəyik. Bunu görmək istəməyən məcbur olub görəcək. Görəcək ki, erməni faşizmi, erməni vəhşiliyi nədir”.

# Türkiyə mediası Azərbaycan Prezidentinin Kəlbəcər və Laçın rayonlarına səfərini geniş işıqlandırıb










**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın avqustun 16-da Kəlbəcər və Laçın rayonlarına səfəri Türkiyənin aparıcı kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.**

AZƏRTAC xəbər verir ki, Anadolu agentliyi, “TRT Haber”, “TRT Avaz”, “Haber Global” telekanalları, “Sabah”,”Yeni akıt”, “Hüriyyət”, “Milliyet” qəzetləri və digər media qurumları səfərin təfərrüatlarını türkdilli ictimaiyyətə geniş şəkildə çatdırıblar.

Anadolu agentliyi yaydığı videomaterialda dövlətimizin başçısı İlham Əliyevin öz səsi ilə səfər və onun təfərrüatı barədə türkdilli ictimaiyyətə məlumat çatdırıb. Bölgənin füsunkar gözəlliyi, Prezident İlham Əliyevin Kəlbəcərdə Dövlət bayrağımızı yüksəltməsi, dövlətimizin başçısının yerli sakinlər, eləcə də arıçılarla görüşü və səmimi söhbəti orijinal kadrlar əsasında materialda əksini tapıb. Bu videomaterial digər media qurumları tərəfindən də sürətlə yayılıb.

“TRT haber” telekanalının saytında səfərlə bağlı fotosessiya təqdim olunub.

“Haber global” telekanalı səfərlə bağlı geniş videomaterial yayıb.

“Sabah” qəzeti Prezident İlham Əliyevin səfər çərçivəsindəki çıxışları, fikir və mülahizələri əsasında analitik təhlil aparıb. Yazıda Azərbaycana qarşı həyata keçirilmiş işğalçılıq siyasəti və sərgilənən ədalətsizlik faktlarla oxuculara çatdırılıb.

Qeyd edək ki, Türkiyənin nüfuzlu kütləvi informasiya vasitələri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin avqustun 14-də “CNN türk” televiziya kanalına müsahibəsini də geniş işıqlandırıb.

Bütün materiallarda Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı rəşadət, işğal altındakı torpaqlarımızın düşməndən cəsarətlə alınması, zalım düşmənin törətdiyi vəhşiliklər, azad olunan bölgələrimizdə həyata keçirilən geniş quruculuq və bərpa işləri, böyük qayıdışa qərarlı hazırlıq məsələləri əksini tapıb.

https://www.milliyet.com.tr/milliyet-tv/azerbaycan-cumhurbaskani-aliyev-ermenistan-isgalinden-kurtarilan-lacin-ve-kelbeceri-ziyaret-etti-video-6576560

https://haberglobal.com.tr/dunya/azerbaycan-cumhurbaskani-ilham-aliyev-2-karabag-savasi-nin-ardindan-ilk-kez-kelbecer-de-126833

https://www.yeniakit.com.tr/video/azerbaycan-cumhurbaskani-aliyev-ermenistan-isgalinden-kurtarilan-lacin-ve-kelbeceri-ziyaret-etti-57638.html

https://www.trthaber.com/foto-galeri/aliyev-ermenistan-isgalinden-kurtarilan-lacin-ve-kelbeceri-ziyaret-etti/37778/sayfa-1.html

https://www.aa.com.tr/tr/dunya/aliyev-ermenistan-isgalinden-kurtarilan-lacin-ve-kelbeceri-ziyaret-etti/2337523

https://www.hurriyet.com.tr/dunya/azerbaycan-cumhurbaskani-aliyev-ermenistan-isgalinden-kurtarilan-lacin-ve-kelbeceri-ziyaret-etti-41874654

https://www.trtavaz.com.tr/haber/tur/avrasyadan/azerbaycan-cumhurbaskani-aliyev-ermenistan-isgalinden-kurtarilan-lacin-ve-kelbe/611b4e6501a30ab758fc0d6a

https://www.hurriyet.com.tr/gundem/azerbaycan-cumhurbaskani-aliyevden-41873452

https://www.milliyet.com.tr/galeri/ne-oldu-pasinyan-sozleri-tarihe-gecmisti-hikayesini-cnn-turke-anlatti-6574797/1

https://www.cnnturk.com/dunya/son-dakika-ilham-aliyevden-cnn-turke-ozel-aciklamalar

# Milli mənafeləri layiqincə qoruyan Lider



### Müzəffər Ali Baş Komandan Azərbaycanın prinsipial mövqeyini qətiyyətlə ifadə etdi

***Siyavuş NOVRUZOV,***
*Milli Məclisin Regional məsələlər komitəsinin sədri:*

- Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev "CNN Türk" televiziya kanalına müsahibəsində çox mühüm məsələlərə toxundu, qalib Azərbaycanın prinsipial mövqeyini növbəti dəfə qətiyyətlə ifadə etdi. İlk növbədə qeyd etmək lazımdır ki, bu müsahibə də digərləri kimi istər 30 illik işğal dövrü, istər 44 günlük Vətən müharibəsi, istərsə də müharibə sonrasında yeni mərhələ ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması baxımından olduqca əhəmiyyətli və əlamətdardır. Bu, həm də ermənipərəst dairələrin anti-Azərbaycan təbliğatının - qarayaxma kampaniyasının iflasa uğradılması üçün çox önəmlidir.

Dövlət başçısı öz ərazi bütövlüyünü bərpa etmiş Azərbaycanın indiki şəraitdə və qarşıdakı dövr üçün hədəflərini əhatəli şəkildə diqqətə çatdırdı. Dövlət başçısı istər sülh müqaviləsinin imzalanması, istər regionda nəqliyyat-kommunikasiya xətlərinin bərpa olunması və əməkdaşlığın təmin edilməsi, istərsə də təhlükəsizliyə təhdid yaradan hallara qarşı mübarizə ilə əlaqədar Azərbaycanın konkret yanaşmasını ortaya qoydu. Müsahibədə də əks olunduğu kimi, Azərbaycan sülh müqaviləsinin imzalanması ilə əlaqədar konkret mövqeyini ifadə edib. Ermənistan ərazi iddiasından əl çəkməli, ölkəmizin ərazi bütövlüyünü tanımalı və sülh müqaviləsini imzalamalıdır. Belə olan halda Cənubi Qafqaz regionunda uzunmüddətli sülh və təhlükəsizlik mühitini təmin etmək mümkün olacaq. Bu, Ermənistan da daxil olmaqla regionda bütün dövlətlərin maraqlarına tam cavab verir, bölgə xalqlarına rifah və inkişaf vəd edir. Lakin Ermənistan zamanında konkret mövqe ortaya qoymalı və sülh masasına gəlməlidir. Azərbaycan uzun müddət qeyri-müəyyənlik şəraitində gözləmək niyyətində deyil.

Digər tərəfdən, Prezident İlham Əliyev Azərbaycanın regionda çoxşaxəli işbirliyi mühitinin yaradılması və əməkdaşlığın dərinləşdirilməsi tərəfdarı olduğunu bir daha qəti şəkildə bəyan etdi. Xüsusilə də Zəngəzur dəhlizinin yaradılması məsələsi Azərbaycanın siyasi gündəliyinin mühüm tərkib hissəsidir. Zəngəzur dəhlizi həm ölkəmizin yerləşdiyi regionda, həm də Asiyada Avropaya doğru geniş məkanda yeni siyasi-iqtisadi mənzərənin formalaşmasına zəmin yaradacaq. Bu ərazidən keçən nəqliyyat xətti bir çox dövlətin əməkdaşlıq imkanlarını genişləndirəcək. Ən vacib məqamlardan biri yeni kommunikasiya vasitəsilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası vasitəsilə Türkiyə ilə birləşməsi, Azərbaycanın əsas hissəsi ilə muxtar respublika arasında birbaşa quru əlaqəsinin yaranmasıdır. Təbii ki, bu, sosial-iqtisadi cəhətdən çox önəmlidir. Bütövlükdə, yeni infrastrukturun yaranması nəticəsində Azərbaycanın tranzit əhəmiyyətinin artması, iqtisadi inkişafının sürətlənməsidir. Təbii ki, Orta Asiya ilə Avropanı birləşdirən bu infrastruktur layihəsi digər region ölkələri üçün də iqtisadi fayda əldə etmək üçün perspektivlidir. Bu dəhlizin yaradılması elə Ermənistan üçün də tarixi şansdır. Ermənistan bu imkandan istifadə edərək dəmir yolu ilə həm İranla, həm də Rusiya ilə əlaqə yarada bilər ki, bu da iqtisadi mənfəət qazanmaq deməkdir.

Dövlət başçısının sözügedən müsahibəsində diqqət çəkən mühüm məqamlardan biri Ermənistana və onun havadarlarına ciddi xəbərdarlıq edilməsidir. Azərbaycan Respublikasının Prezidenti 10 noyabr 2020-ci il tarixdə imzalanmış üçtərəfli Bəyanatın bütün tələblərinin yerinə yetirilməsinin mütləq olduğunu bir daha diqqətə çatdırdı. Təbii ki, dəmir yumruq öz yerindədir, Azərbaycan dövləti Ermənistanın istənilən təxribat cəhdinin və qeyri-qanuni fəaliyyətinin qarşısını almaq gücündədir. Ali Baş Komandanımızın qeyd etdiyi kimi, əgər yenə də erməni faşizmi baş qaldırmağa cəhd belə göstərsə, biz onun başını bir daha əzəcəyik. Vətən müharibəsindəki məğlubiyyət onlar üçün dərs olmalıdır.

Beləliklə, regionda yeni təhlükəsizlik və əməkdaşlıq mühiti yaradan Azərbaycan öz hədəflərini ardıcıl olaraq uğurla gerçəkləşdirir. Bu isə həm ölkəmizin gücünün artmasını, həm də beynəlxalq mövqeyinin möhkəmlənməsini təmin edir.

### İlham Əliyev Laçın və Kəlbəcərin tarixi şöhrətini özünə qaytarır

***Müşfiq MƏMMƏDLİ,***
*Milli Məclisin deputatı:*

- İkinci Qarabağ müharibəsini Qələbə ilə başa vuran Azərbaycan dövləti ərazi bütövlüyünü bərpa etdi. Bu zəfər xalqımızın şərəf və qəhrəmanlıq salnaməsi oldu, tarixə milli qürurumuzun təntənəsi kimi həkk olundu. 44 gün davam edən döyüşlər və qazanılan möhtəşəm Qələbə Prezident İlham Əliyevin yenilməz qətiyyətini, Ali Baş Komandanı olduğu Ordumuzun qüdrətini və xalqımızın milli birliyini bütün dünyaya nümayiş etdirdi.

İndi işğaldan azad edilmiş torpaqlarımızda yeni ab-hava var. Düşmən tapdağından qurtulan bütün yurd yerlərimizə yenidən həyat verilir. Avqustun 16-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Kəlbəcər və Laçın rayonlarına səfərləri də göstərdi ki, bütün azad edilmiş torpaqlarımız ən qısa zamanda əvvəlki şöhrətini bərpa edəcək.

Bu, dövlət başçısının işğaldan azad edilmiş rayonlarımıza ötən ilin noyabrından bəri etdiyi 10-cu səfər idi. Qısa müddətdə 10 səfərin edilməsi ilk növbədə möhtərəm Prezidentin azad olunmuş ərazilərimizin bərpasına və yenidən qurulmasına göstərdiyi həssas diqqətin təzahürüdür. Eyni zamanda əvvəlkilər kimi bu da sıradan bir səfər deyildi. Bu, xüsusilə İlham Əliyevin Kəlbəcərə müharibədən sonra ilk səfəri olduğu üçün tarixi əhəmiyyət daşıyırdı. Bu, "Qarabağ və Şərqi Zəngəzur Azərbaycandır!" - deyən və onu reallığa çevirən İlham Əliyevin qələbəsinin təntənəsi olan səfər, xalqımızın 44 günlük müharibədəki Qələbə sevincinin məntiqi davamı idi. Bu səfər həm də dönüş idi, doğma torpaqlarımıza böyük qayıdışın rəmzi, gələcəyə baxışımızın ifadəsi idi. *"Ermənistan ordusunu məhv edərək qayıtdıq, Ermənistan faşizminin başını əzərək qayıtdıq, erməni cəlladlarını cəzalandıraraq qayıtdıq, şəhidlərimizin qanını alaraq qayıtdıq. Qayıtmışıq, bu gün burada durmuşuq və əbədi duracağıq!"* - deyən İlham Əliyev Kəlbəcərdən bir daha torpaqlarımızın azadlığının, onun əsl sahiblərinin artıq qayıtdığının müjdəsini bütün dünyaya verdi. İlham Əliyev bu dəfə Azərbaycan bayrağını Kəlbəcərdə ucaltdı. Müzəffər Ali Baş Komandan bir daha bütün dünyaya göstərdi ki, işğaldan azad olunmuş bu torpaqlar Azərbaycan dövlətinin ərazisidir.

İlham Əliyev Kəlbəcərdən və Laçından düşmənə həm mesaj verdi, həm xəbərdarlıq etdi, həm Vətən müharibəsindəki qələbədən sonra regiondakı hərbi-siyasi vəziyyəti təhlil etdi, həm də vacib məsələlərə aydınlıq gətirdi. Xüsusən dövlət başçısının dağıdılan erməni mifləri barədə fikirləri təsdiq edir ki, tarixi Qələbəmizin məzmunu olduqca dərindir. "Yenilməz erməni ordusu", "Qəhrəman erməni əsgəri", "Görkəmli erməni sərkərdələri", "Azərbaycanlılar vuruşmayacaqlar" kimi ermənilərin yaratdığı miflər 44 günün elə ilk günlərində darmadağın olundu. Xalqımız isə miflərə yox, reallıqlara üstünlük verir və bu Qələbənin fonunda bütün dünya Azərbaycan Prezidentinin qətiyyətini, müdrikliyini, dövlətimizin gücünü və xalqımızın həmrəyliyini gördü. Bütün dünya Azərbaycan dövlətinin öz gücünə arxalanaraq milli mənafeyini layiqincə təmin etməsinə şahid oldu.

Bu səfər zamanı Mehriban xanım Əliyevanın etdiyi çəkilişlər bir daha məlum həqiqətləri bütün dünyaya nümayiş etdirdi. Bəli, biz işğalçı, terrorçu düşmənlə yox, həm də vandallarla, vəhşilərlə üz-üzə qalmışdıq. Azərbaycan dövləti bütün azad olunmuş torpaqları dirçəldəcək, eyni zamanda ərazilərimizi dağıdan, ekoloji terror törədən düşmən bütün bunlara görə beynəlxalq məhkəmələrdə cavab verəcək.

Dövlət başçısı bu dəfə də işğaldan azad edilmiş ərazilərdə yenidən qurulan infrastrukturların təməlini qoydu, layihələrlə tanış oldu. Bu sırada xüsusən Laçında təməli qoyulan yeni hava limanının əhəmiyyətini qeyd etmək istəyirəm. Mürəkkəb relyefi olan ərazidə hava limanının inşasına başlanılması ilk növbədə Azərbaycan dövlətinin qüdrətini göstərir. Laçında hava limanının inşası Şərqi Zəngəzurun iqtisadi inkişafına, bu bölgənin Azərbaycanın turizm mərkəzlərindən birinə çevrilməsinə böyük töhfə olacaq. Təbii ki, hərbi baxımdan da bu hava limanı strateji əhəmiyyət daşıyacaq.

Onu da qeyd edim ki, son vaxtlar dövlət sərhədi istiqamətində hərbi təxribatlar çoxalıb. O cümlədən Rusiya sülhməramlılarının nəzarətində olan yerlərdən də Azərbaycan Ordusunun mövqeləri atəşə tutulur. Bölgədə gərginliyin artmasına hədəflənmiş bu silahlanma 10 noyabr Bəyanatına ziddir. Görünür, Ermənistan hələ də 44 günlük müharibədəki məğlubiyyətindən dərs çıxarmaq istəmir. Prezident İlham Əliyev Türkiyənin "CNN Türk" televiziyasına müsahibəsində də Ermənistana növbəti xəbərdarlığını edərək deyib: *"Əgər yenə də erməni faşizmi baş qaldırmağa cəhd belə göstərsə, biz onun başını bir daha əzəcəyik. İkinci Qarabağ müharibəsindəki məğlubiyyət onlar üçün dərs olmalıdır"*.

30 ilə yaxın bir dövrdə Minsk qrupunun yoluna qoymaq istəmədiyi bu problemi cənab İlham Əliyev dəmir yumruqla həll etdi. Bu dəmir yumruq Ermənistanın işğalçılıq planlarını həyata keçirməsinə bir daha imkan verməyəcək.

### Azərbaycan bundan sonra da milli maraqlarını qətiyyətlə təmin edəcək

***Könül NURULLAYEVA,***
*Milli Məclisin deputatı:*

- İkinci Qarabağ müharibəsindəki Qələbə Azərbaycanın son 200 illik tarixinin döyüş meydanında yazılan şanlı səhifəsi oldu. Erməniperəst dövlətlərin və beynəlxalq təşkilatların təzyiq və təhdidlərinin qarşısını qətiyyətlə alan möhtərəm Prezident, Ali Baş Komandan İlham Əliyev ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Aradan aylar, illər, onilliklər, qərinələr keçəcək, lakin bu Qələbə həmişə xalqımızın yoluna işıq salacaq, keçmişimizin qürur mənbəyi kimi gələcəyimizi qurmağa kömək edəcək.

Cəmi bir neçə aydan sonra tarixi qələbəmizin bir ili tamam olacaq. Bir il elə də böyük zaman kəsiyi deyil. Amma bu qısa zaman kəsiyində Azərbaycan dövlətinin işğaldan azad edilən torpaqlarımızda həyata keçirdiyi quruculuq işləri bəlkə də onilliklərə bərabərdir. Avqustun 16-da cənab Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Kəlbəcər rayonuna səfərləri zamanı təməli qoyulan və ölkə rəhbərliyinin tanış olduğu layihələr hər birimizdə qürur doğurdu. Bəli, torpaqlarımızın cəmi 44 günə işğaldan azad olunmasını təmin edən İlham Əliyev indi onu sürətlə yenidən qurur, bərpa edir.

Dövlət başçısı Kəlbəcərdə Lev çayının kənarında çay süfrəsi ətrafında həm də Ermənistana və onun havadarlarına mesaj verdi, bu torpaqların əsl sahibinin Azərbaycan xalqı olduğunu bəyan etdi: *"Biz buraya qayıtmalı idik və qayıtdıq. Onlar buradan getməli idilər və getdilər. Tarixi ədalət bərpa olundu və biz ölkəmizin bəlkə də ən gözəl rayonlarından biri olan Kəlbəcərə nəinki qayıtmışıq, Kəlbəcərin inkişafı ilə bağlı artıq planlarımızı reallaşdırırıq"*.

Dövlət başçısının Kəlbəcərdə bildirdiyi kimi, Ermənistanın məqsədi zəbt etdiyi bütün torpaqları əbədi işğal altında saxlamaq idi. Danışıqlar prosesində Ermənistan tərəfindən Kəlbəcər və Laçın rayonlarının qaytarılması ilə bağlı Azərbaycanın maraqlarına uyğun olmayan şərtlər irəli sürülürdü. Amma bu ölkə danışıqlarda həmişə qeyri-səmimi və qeyri-konstruktiv mövqe ortaya qoyub və işğal etdiyi rayonlarımızı qaytarmaq fikrindən uzaq olub. Əgər belə olmasaydı, Kəlbəcərə Ermənistanın Basarkeçər rayonu istiqamətindən avtomobil yolu çəkməzdilər. Üçtərəfli Bəyanata uyğun olaraq Ermənistan Kəlbəcər və Laçın rayonlarından çıxmağa məcbur edildi. Həmin avtomobil yolu isə qələbədən sonra qənimət kimi Azərbaycana qaldı. Hansı ki Prezident İlham Əliyev Kəlbəcərə səfəri zamanı həmin yoldan da istifadə etdi.

Kəlbəcər şəhərində dövlət bayrağını ucaldan Prezident İlham Əliyev çıxışında bir çox məsələlərə nəzər saldı, Azərbaycan-Ermənistan dövlət sərhədindəki son proseslər və perspektiv vəzifələr barədə məlumat verdi. Bəli, məhz Prezidentin qətiyyətli siyasətinin nəticəsidir ki, hazırda Kəlbəcərdə dövlət sərhədi istiqamətində hərbi vəziyyət tam Azərbaycanın nəzarəti altındadır. Ermənistan bu istiqamətdə nə qədər təxribatlar törətsə də, Azərbaycan Vətən müharibəsindki qələbənin davamı olaraq dövlət sərhədini də bərpa etdi və Murovdağdan Araz çayına qədər bütün sərhəd infrastrukturu yaradılır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: *"Azərbaycan-Ermənistan sərhədində biz söz sahibiyik. Bu, təbiidir və bundan sonra da söz sahibi olacağıq"*.

Cənab Prezidentin "Ermənistan ordusunu məhv edərək qayıtdıq, Ermənistan faşizminin başını əzərək qayıtdıq, erməni cəlladlarını cəzalandıraraq qayıtdıq" sözləri də siyasi və hərbi-strateji şəraitin tam Azərbaycanın nəzarətində olmasına işarə olmaqla yanaşı, son zamanlar Ermənistanda baş qaldırılmasına cəhd olunan revanşist meyillərə mesaj idi. Son günlərdə Ermənistanın və onun təəssübkeşlərinin yenidən vəziyyəti gərginləndirmək cəhdləri, cəhənnəmə göndərilmiş status məsələsini qabartmaları hiss olunur. Amma statusun harada olduğunu hələ ötən il noyabrın 10-da Prezident İlham Əliyev göstərib. Bu gün Ermənistanın müdafiəsinə qalxan, erməni lobbisinin əlində alətə çevrilən dövlətlər və siyasi mərkəzlər yaxşı anlayırlar ki, status məsələsini ortaya atmaqla Azərbaycana təsir edə bilmələri qeyri-mümkündür. 30 ilə yaxın müddətdə ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyən, 44 günlük Vətən müharibəsində isə yaxından dəstək verilən Ermənistanı darmadağın edən Azərbaycan bundan sonra da öz milli maraqlarını qətiyyətlə təmin edəcək.

### Azərbaycan prinsipiallığını qoruyacaq

***Şahin İSMAYILOV,***
*Milli Məclisin deputatı:*

- Prezident İlham Əliyevin "CNN Türk" televiziya kanalına müsahibəsi zamanı söylədiyi fikirlər onu deməyə əsas verir ki, Azərbaycan bundan sonrakı dövrdə də həssas yanaşdığı məsələlərdə prinsipiallığını qoruyacaq, yenə də öz gücünə arxayın olacaq və bölgədə yaranmış yeni şəraitin bu regionda yerləşən dövlətlər üçün bir fürsətə - əməkdaşlığa, sülhə, inkişafa çevrilməsinə dəstək göstərəcək. 30 ilə yaxın dövrdə Azərbaycan ərazilərini işğal edərək amansız dağıntılar, vandalizm, soyqırım törədən Ermənistan 44 gün ərzində layiqli cavabını aldı və nəticədə ölkəmiz ərazi bütövlüyünü bərpa etdi. Hesab edirəm ki, Prezident İlham Əliyev bundan sonrakı dövr üçün mövqeyini açıq-aydın ortaya qoydu və hər kəsi bu fikirlərdən nəticə çıxarmağa çağırdı.

Burada bir neçə istiqaməti xüsusi vurğulamaq istərdim. Müzəffər Ali Baş Komandan bir daha bildirdi ki, Azərbaycan öz gücünə qısa müddətdə müharibədən qalib çıxdı və tarixi ədaləti bərpa etdi. İndi isə ölkəmizin mövqeyi imzalanmış üçtərəfli sənədin tam icrası və Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanımaqla yekun sülh sazişinin bağlanmasından ibarətdir. Bununla Azərbaycan imzaladığı sənəddə üzərinə düşən öhdəliklərin yerinə yetirilməsinə sadiqlik göstərməklə digər tərəfləri də buna çağırdı. Əslində, hər kəsə də məlumdur ki, Azərbaycan qeyri-adi nəsə istəmir, beynəlxalq hüquq çərçivəsində tanınan ərazilərinin Ermənistan tərəfindən də tanınmasını tələb edir.

Prezident İlham Əliyev eyni zamanda Rusiya sülhməramlılarının məsuliyyət dairəsində olan Azərbaycan ərazilərində də bizim tərəfimizdən tam izlənmənin həyata keçirildiyini vurğulamaqla orada cərəyan edən bütün hadisələr barədə məlumatlı olduğumuzu göstərdi. Bu məqamlara toxunmaqla dövlət başçısı bir daha açıq şəkildə Ermənistana mesaj verdi - biz sülh tərəfdarıyıq, amma hər hansı yeni aqressiya qarşı tərəf üçün fəlakətlə nəticələnəcək.

Bundan başqa, regionda açılacaq yeni nəqliyyat dəhlizlərinin, xüsusilə də Zəngəzur dəhlizinin önəminə diqqət yetirilməsi Azərbaycanın bu məsələdə də prinsipial mövqedə olduğunu göstərdi. Bütövlükdə iqtisadi münasibətlərin bərpası, nəqliyyat dəhlizlərinin qısa müddətdə işə salınması bir tərəfdən, region üçün böyük əhəmiyyət daşıyırsa, digər tərəfdən, iqtisadiyyatı ianələr üzərinə qurulan Ermənistanın özü üçün yeganə çıxış yoludur. Prezident İlham Əliyevin Azərbaycanın tolerant, çoxkonfessiyalı bir dövlət olduğunu, xalqların bir yerdə əsrlər boyu mehriban yaşadıqlarını xatırlatması və Azərbaycan Rusiya sülhməramlılarının nəzarət zonasındakı ərazilərində olan ermənilərə çağırış etməsi onlar üçün də tarixi bir şansdır. Onlar güclü Azərbaycan dövlətinin vətəndaşları kimi yaşaya bilərlər.

### Prezident İlham Əliyevin müsahibəsi mühüm məsələlərə aydınlıq gətirdi

***Tamam CƏFƏROVA,***
*Milli Məclisin deputatı:*

- Azərbaycan Prezidenti İlham Əliyevin "CNN Türk" telekanalına müsahibəsi mühüm mesajlarla yadda qaldı. Dövlət başçısı Azərbaycanın siyasi xəttinin konturları ilə bağlı ölkə və dünya ictimaiyyətini məlumatlandırdı. Prezident İlham Əliyev öz xalqına dərindən bağlı olan, bütün gücünü, enerjisini müstəqil Azərbaycanın daha da qüdrətlənməsinə sərf edən bir Liderdir. Dövlət başçısı Azərbaycanı güclü dövlətə çevirməklə və ölkəmizin ərazi bütövlüyünü bərpa etməklə Azərbaycan xalqının gözündə daha da ucaldı. 44 günlük Vətən müharibəsində xalq öz Liderinin ətrafında daha da sıx birləşərək bir yumruğa çevrildi.

Azərbaycan xalqı öz Liderini İkinci Qarabağ müharibəsində sanki yenidən kəşf etdi. Dövlət başçısının xarakterinin, şəxsi keyfiyyətlərinin, qətiyyətinin, cəsarətinin, vətənpərvərlik nümunəsi göstərməsinin şahidi oldu. Azərbaycan xalqı üçün ən mühüm əhəmiyyət kəsb edən, taleyüklü problemin həllində Prezident İlham Əliyev möhkəm qətiyyət, prinsipiallıq, uzaqgörənlik nümayiş etdirdi və məqsədyönlü, düşünülmüş siyasət yürütdü. Məhz bu siyasətin nəticəsi idi ki, Azərbaycan 30 ilə yaxın işğal altında olan torpaqları öz gücünə, şəhidlərimizin canı-qanı bahasına azad etdi. Uzun illərdir ki, BMT-nin kağız üzərində qalan qətnamələri 44 günlük Vətən müharibəsində yerinə yetirildi.

Dövlət başçısı müsahibəsində Ermənistanın Laçın yolu vasitəsilə Rusiya sülhməramlılarının nəzarətində olan ərazilərə silah və hərbçilər göndərməsini yolverilməz hesab etdi və buna son qoyulması üçün ciddi tədbirlər görülməsinin zəruriliyini vurğuladı. İctimaiyyətin diqqətinə çatdırıldı ki, Azərbaycan bu ərazilərdə baş verən prosesləri yaxından izləmək üçün bütün texniki imkanlara malikdir və Ermənistandan həmin əraziyə gedən və qayıdan avtomobillərin, insanların dəqiq sayını belə bilir.

Prezident İlham Əliyevin müsahibəsində Vətən müharibəsində Türkiyənin Azərbaycana siyasi və mənəvi dəstəyi, bu işdə Prezident Rəcəb Tayyib Ərdoğanın xüsusi rolu qeyd olundu. 44 günlük Vətən müharibəsi Azərbaycana dostunu da, düşməninin də seçmək imkanı verdi. Çünki dostlar dar gündə tanınar. Türkiyə-Azərbaycan qardaşlığı və dostluğu illərin sınağından keçib. Çünki bizim dostluğumuz Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" ifadəsinin prinsiplərinə əsaslanır. Bu dostluğun təcəssümünü Türkiyədə bu yaxınlarda baş vermiş təbii fəlakətin aradan qaldırılmasında da bir daha gördük. Bu hadisələrdə Azərbaycanın verdiyi hərtərəfli dəstək və yardım Türkiyə-Azərbaycan birliyinin əməldə öz əksini tapmasıdır.

### Dövlət başçısı "bulanıq suda balıq tutmaq istəyənlər"ə anladıqları dildə cavab verdi

***Jalə ƏLİYEVA,***
*Milli Məclisin deputatı:*

- Türkiyənin nüfuzlu telekanallarından olan "CNN Türk"ə geniş müsahibə verən Prezident, Ali Baş Komandan İlham Əliyev yenə birmənalı, qətiyyətli və cəsarətli mövqeyini bütün dünyaya nümayiş etdirdi. Bu müsahibədə hər kəsə cavab var idi, xüsusilə də bizi istəməyənlərə, yenə "bulanıq suda balıq tutmaq sevdası"na düşənlərə. Hər kəsə anladığı və anlayacağı dildə cavab verildi, elə bir məqam-məsələ olmadı ki, cavablandırılmasın. Bu müsahibə dostlara, müttəfiqlərə təşəkkürlər və minnətdarlıqlarla, düşmənə, onun açıq və gizli havadarlarına sərt xəbərdarlıqlar və mesajlarla yadda qaldı. Prezident İlham Əliyev yenə də birmənalı, obyektiv və ədalətli mövqe sərgilədi.

Dövlət başçısı müsahibəsində "Biz öz mövqeyimizi dəfələrlə bildirmişdik. Mən bir neçə dəfə öz sözümü açıq demişdim ki, biz istəyirik Ermənistanla sülh müqaviləsi imzalansın. Ermənistan və Azərbaycan bir-birilərinin ərazi bütövlüyünü tanısınlar və sərhədlərin delimitasiyası, yəni müəyyən edilməsi prosesi də başlasın. Ancaq bu günə qədər Ermənistandan müsbət cavab almamışıq. Belə görünür ki, Ermənistan buna hazır deyil, ya da bunun əleyhinədir. Mən söylədim ki, bu, böyük yanlışlıq olar və onlar özləri də peşman olacaqlar" deyərək bu təklifin masa üzərində əbədi qalmalı olmadığını vurğuladı.

Müsahibədə də vurğulandığı kimi, Zəngəzur dəhlizinin açılması Ermənistanın da maraqlarına cavab verir. Çünki Zəngəzur dəhlizi onların da maraqlarına xidmət edəcək. Onlar da dəmir yolu ilə həm İran, həm də Rusiya ilə əlaqə yarada bilərlər.

Ancaq çox təəssüf ki, illərdir, əsrlərdir Ermənistanda, ermənilər arasında ifrat millətçilik, türkofobiya, azərbaycanofobiya, islamofobiya o dərəcədə insanların və hakim dairələrin beyinlərini zəhərləyib ki, onlar bunu istəsələr də, dilə gətirə bilmirlər. Dövlət başçısının qeyd etdiyi kimi, Ermənistanda cəmiyyət və hakimiyyət təbii ki, indi çox çətin bir psixoloji durumdadır.

Daha bir önəmli və həssas məsələyə - Azərbaycan-Türkiyə münasibətlərinə toxunan Prezident İlham Əliyev birliyimizi, birgəliyimizi, qardaşlığımızı, ayrılmazlığımızı, həmrəyliyimizi növbəti dəfə ortaya qoydu. Bildirdi ki, son 18 il ərzində həm Türkiyə, həm Azərbaycan tərəfindən vahid siyasət formalaşdırılıb. Türkiyə-Azərbaycan birliyi artıq regional amildir, bəlkə də nə vaxtsa qlobal amilə çevriləcək. Çünki indi başqa ölkələrlə də müttəfiqlik əlaqələri formalaşmaqdadır. Bu, bəzilərini narahat edir. Ona görə də aramıza girməyə, təxribatlar törətməyə çalışacaqlar. Azərbaycanla qardaş Türkiyə bundan sonra da daim qoşa qanad kimi birlikdə çalışıb qələbələrə, zəfərlərə birgə imza atacaqlar.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

**Replika**






# Paytaxtın mərkəzindəki sahibsizlik "abidə"si

## Bir vaxtlar "Fantaziya" hamamı kimi tanınan tarixi bina baxımsızlıq üzündən dağılıb gedir

**Bakının Dilarə Əliyeva küçəsindəki bu binanın ön divarında - giriş qapısında asılmış lövhədə onun Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinə məxsus olduğu bildirilir. Lövhədəki "1886-cı il" yazısı isə tikilinin tarixinin çox uzaqlara getdiyini, yəni üç əsrin şahidi olduğunu göstərir. Daha sonra elə həmin lövhədə bildirilir ki, bina yerli əhəmiyyətli memarlıq abidəsidir və dövlət tərəfindən qorunur.**









Foto İlham BABAYEVİNDİR

Bu, Bakının qədim və məşhur "Fantaziya" hamamının binasıdır, daha doğrusu, belə davam etsə, binası idi. Bəli, paytaxtın mərkəzində yerləşməsinə baxmayaraq, indi "gözdən uzaq, könüldən iraq" düşən, bir vaxtlarsa bənzərsiz tikili olmuş "Fantaziya", həqiqətən, iki gözün baxmaqdan doymadığı bir fantaziya idi. Onun içəri divarları da, döşəməsi də mərmərdən olub. Bütövlükdə mərmərdən yonulmuş vanna, divarlardakı yapma naxışlar onu digər hamamlardan fərqləndirib. "Fantaziya" həm də Bakıda elektrik xəttinin çəkildiyi ilk kommersiya tikilisi olub. Halbuki o zaman elektrik enerjisi ilə yalnız dövlət idarələri və varlı adamların evləri işıqlandırılırdı. Amma bunlar da hələ hamısı deyil. Hamamda prosedurlardan sonra çay içmək üçün xüsusi zal fəaliyyət göstərib, dincələnlərə bir neçə dildə qəzet və jurnallar təklif edilib. Fəaliyyət göstərdiyi ilk illərdə burada canlı musiqi, sonralar isə fonoqram səsləndirilib. Binada hətta heç yerdə rast gəlinməyən telefon olub, 20-yə yaxın ofisiant və lakey, bir o qədər də xadimə işləyib. Demək istədiyimiz odur ki, "Fantaziya" təkcə memarlıq cəhətdən paytaxtımızı bəzəyən nadir tikili yox, həm də servisinə görə nümunəvi obyekt olub.

Bu gün isə... "Fantaziya" pəncərələrinin şüşələri sınmış, divarlarının rəngi solmuş, qapılarından, sözün həm birbaşa, həm də dolayı mənasında, qıfıl asılmış bir bina, ətrafdakı evlərin və obyektlərin "kölgə"sində qalan birmərtəbəli baxımsız bir tikilidir.

"Kölgə" demişkən. Toz-torpaq və mamır basdığından binanın damında xeyli ağac da bitib və elə bil kiçik budaqlarının yaratdığı "çətir"lə "Fantaziya"nı qorumaq istəyirlər. Vaxtilə su üçün nəzərdə tutulan çənlər isə indi ötüb-keçənlərin zir-zibil atdığı çuxura çevrilib. Binaya həkk olunan üç yonulmuş şir fiquru da sanki bütün bunlara qəzəblənərək üz-gözünü turşudub. Təəssüf ki, onlar binanı qorumağa qadir deyillər. Onu əlaqədar qurum və təşkilatlar qorumalıdır, xalqımız, tariximiz, paytaxtımız üçün əhəmiyyətli olan memarlıq abidəsi kimi...

Amma qoruyurlarmı?! Şəkillərdən də göründüyü kimi, nəinki qorumurlar, hətta XIX əsrin bu bənzərsiz tikilisinin sanki qəsdinə durublar. Məqsədləri nədir, deyə bilmərik. Binanın "istifadəyə yararsızdır" və ya "heç bir tarixi əhəmiyyəti yoxdur" adı ilə sökülməsinə qərar verib yerini satmaq istəmələrini də iddia etmirik, baxmayaraq ki, xüsusən Bakıda belə halların baş verdiyindən xəbərimiz var. Əks halda Mədəniyyət Nazirliyinin məsul əməkdaşı məhz bu cür işlər üstündə mühakimə edilməzdi ki...

Bu məqamda tikili abidələrimizə əlaqəli qurumların timsalında hamımızın laqeyd, şəxsi maraqlar çərçivəsində münasibətini anlamaq mümkün deyil. Belə münasibət indi ermənilərin Qarabağda qədim alban tikililəri ətrafında çıxardıqları oyunların fonunda isə daha əcaib görünür.

Əcaib görünən həm də odur ki, sən demə, mədəniyyət abidəsi kimi dövlət tərəfindən qorunan bu bina hələ neçə il əvvəl özəlləşdirilibmiş. Bunun qanun çərçivəsində, yaxud qanundan kənar olduğu ilə işimiz yoxdur. İşimiz olan, bizi rahatsız edən memarlıq abidəsinin özəlləşdiriləndən sonra da dövlətin müvafiq qurumunun nəzarətində olmalı olduğunun unudulmasıdır.

Əgər belədirsə, biz qəzet olaraq bunu hamamın üzərinə "Abidə dövlət tərəfindən qorunur" lövhəsini vuran Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin yadına salırıq. Həm də təkcə yada salmırıq, yaxın zamanda tədbir görülməyəcəyi halda "Fantaziya"nın yalnız fantaziyalarda qalmaq təhlükəsinin yaxınlaşdığı üçün "həyəcan təbili" çalırıq.

*"Azərbaycan"*

# Abşeron rayonunda şəhidlərin xatirəsinə futbol turniri keçirilib

**Abşeron Rayon İcra Hakimiyyəti, Qobu bələdiyyəsi, rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən futbol turnirində həvəskarlar iştirak ediblər.**

5 komandanın iştirak etdiyi turnirdə finala "Gənclər" və "Təzəkənd" komandaları çıxıb. Final görüşündən öncə şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra himnimizin sədaları altında dövlət bayrağı qaldırılıb. Şəhid valideynlərinin və onların yaxınlarının izlədiyi qarşılaşmada Qobu qəsəbəsinin "Gənclər" komandası qalib olub.

Qaliblərə kubok, medal və diplomlar verilib.

*Akif ƏLİYEV, "Azərbaycan"*





# Abşeron yarımadasının dayazsulu hissəsində ilk kəşfiyyat quyusunun qazılmasına başlandı

**SOCAR və bp şirkətləri Xəzərin Azərbaycan sektorunda yerləşən Abşeron yarımadasının dayazsulu hissəsi (AYDH) dəniz blokunun "Şimal xali" sahəsində ilk kəşfiyyat quyusunun qazılmasına başlandığını elan ediblər. Bundan əvvəl quyunun qazılmasını həyata keçirən "Satti" özüqalxan qazma qurğusu təhlükəsiz şəkildə dənizə yola salınmışdı.**

Bu həmin müqavilə sahəsində qazılacaq ilk quyudur, onun ümumi dərinliyinin 2424 metrə çatacağı planlaşdırılır. Qazma işlərinin təxminən iki ay yarım davam edəcəyi gözlənilir. Bundan sonra quyudan əldə edilmiş məlumat analiz ediləcək və göstəricilər uğurlu olarsa, nəticələrin təsdiqlənməsi üçün qiymətləndirmə proqramı həyata keçirilə bilər.

bp AYDH layihəsinin operatorudur və hasilatın pay bölgüsü haqqında sazişdə (HPBS) 50 faiz iştirak payına malikdir. Digər 50 faiz iştirak payı isə SOCAR-a məxsusdur.

*"Azərbaycan"*

# Ağstafanın Həsənsu kəndində yeni məktəb binası tikilir

Ağstafanın Həsənsu kəndində yeni məktəb binasının tikintisinə başlanılıb. Heydər Əliyev Fondu tərəfindən inşa edilən 420 şagirdlik yeni məktəb binası 2 korpusdan ibarət olacaq.

Qeyd edək ki, ötən əsrin 30-cu illərində istifadəyə verilən köhnə məktəb binasının yararsız hala düşməsi tədrisin keyfiyyətinə mənfi təsir göstərirdi. Buna baxmayaraq, məktəb hər il müxtəlif uğurlara imza atırdı.Təkcə keçən il təhsil ocağının 12 məzunundan 8-i ali məktəblərə daxil olmuşdur.

Məktəbin məzunlarından müxtəlif xarici ölkələrdə təhsil alanlar da var. İtaliyanın Latsio regionunda təhsil alan ikinci kurs tələbəsi Bəxtiyar Nəsibli deyir ki, yay tətilini öz kəndimizdə keçirməyi qərara aldım: "Gələndə gördüm ki, vaxtilə təhsil aldığım məktəb üçün yeni bina inşa edilir. Buna çox sevindim".

Hazırda rayonun Sadıqlı kəndində də yeni məktəb binası tikilir. Bundan başqa, Kolayır, Yaradulla kəndlərindən və Həzi Aslanov qəsəbəsindən sonra bu il daha bir neçə kənddə modul tipli məktəblərin inşası nəzərdə tutulur.

*Sabir ƏLİYEV, "Azərbaycan"*



**Beynəlxalq aləm**

# Əfqanıstan: dünənlə sabah arasında

## ABŞ bu ölkənin valyuta ehtiyatlarını bloklayıb, Avropa İttifaqı isə "Taliban"ın qələbəsini etiraf edir





Avropa İttifaqı (Aİ) "Taliban" hərəkatının müharibədə qalib gəldiyini qəbul edir, humanitar və miqrasiya böhranlarının qarşısını almaq üçün Əfqanıstanın yeni hakimiyyəti ilə dialoqa başlamağı zəruri sayır.

Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali komissarı Jozep Borrel demişdir: "Taliban" müharibədə qələbə qazandı, buna görə də miqrasiya və humanitar böhranların qarşısını almaq üçün Kabildəki yeni hakimiyyətlə danışmalıyıq". O bildirib ki, Aİ Əfqanıstandan qaçqın axını ilə üzləşən bölgə ölkələrini dəstəkləyəcək. Həmçinin Avropa İttifaqı heç bir şərt olmadan Əfqanıstana humanitar yardım göstərməyə hazırdır.

BMT-nin İnsan Hüquqları Şurası avqustun 24-ü Cenevrədə Əfqanıstanla bağlı xüsusi iclas keçirəcək. Bu barədə şuranın mətbuat xidməti xəbər verir. Məlumata əsasən, xüsusi sessiya "Əfqanıstandakı vəziyyətlə əlaqədar ciddi narahatlıq"la bağlı olaraq Əfqanıstan, Pakistan və İslam Əməkdaşlıq Təşkilatının əlaqələndiricisinin tələbi ilə keçirilir. Bildirilir ki, iclasın keçirilməsini 89 dövlət dəstəkləyib.

ABŞ Prezidenti Cozef Bayden və Böyük Britaniyanın Baş naziri Boris Conson arasında telefon danışığı olub. Bu barədə Ağ evin Mətbuat xidmətindən bildiriblər. Məlumata əsasən, tərəflər G7 liderlərinin onlayn görüşünü keçirməyə razılaşıblar: "Onlar G7 liderlərinin ümumi strategiya və yanaşmanı müzakirə etmək üçün gələn həftə virtual görüş keçirəcəkləri barədə razılığa gəliblər". Həmçinin qeyd edilir ki, ölkə liderləri öz diplomatlarını və Əfqanıstan vətəndaşlarını təxliyə etmək üçün Kabildə çiyin-çiyinə çalışan hərbçilərin və mülki işçilərin cəsarətini və peşəkarlığını yüksək qiymətləndiriblər.

Bu arada Düşənbə yaxınlığındakı Ramit dərəsində dağ şəraitində terrorizmlə mübarizə tədbirləri çərçivəsində Tacikistan-Çin birgə hərbi təlimləri keçirilir. Tacikistan Daxili İşlər Nazirliyinin Mətbuat xidməti bildirir ki, qurumun Ramit dərəsindəki tədris mərkəzində və ətrafda keçirilən təlimlərdə Tacikistan Daxili İşlər Nazirliyinin və Çin İctimai Təhlükəsizlik Nazirliyinin xüsusi təyinatlıları iştirak edirlər. Avqustun 20-dək keçiriləcək təlimlərdə dağ şəraitində şərti olaraq ölkə ərazisinə qanunsuz keçən silahlı dəstələrin tapılması və zərərsizləşdirilməsi planlaşdırılır. Söz düşmüşkən, qeyd edək ki, Tacikistan-Əfqanıstan dövlət sərhədinin uzunluğu 1400 kilometrdir. Bu günlərdə iki hərbi təyyarə və helikopterlə taliblərdən qaçan 143 əfqan hərbçisi bu ölkədə sığınacaq tapıb.

Əfqanıstanla bağlı başqa bir xəbərdə isə bildirilir ki, son günlər Kabil Beynəlxalq Hava limanında baş verən izdiham və atışma nəticəsində azı 40 nəfər ölüb. Bu barədə "TOLO News" telekanalı hava limanında olan "Taliban" hərəkatının komandirinə istinadən məlumat yayıb.

Bu arada Əfqanıstanın vitse-prezidenti Əmrulla Saleh prezidentin olmadığına görə özünü müvəqqəti dövlət başçısı elan edib: "Əfqanıstan Konstitusiyasına görə, prezidentin olmaması, qaçması, istefası və ya ölməsi halında birinci vitse-prezident müvəqqəti prezident olur. Hazırda mən öz ölkəmdəyəm və qanuni müvəqqəti prezidentəm. Onların dəstəyini və razılığını qazanmaq üçün bütün liderlərlə əlaqə saxlayıram". Əmrulla Saleh həmvətənlərini "Taliban"a qarşı müqavimətə çağırıb: "ABŞ və NATO-dan fərqli olaraq, biz ruhumuzu itirməmişik və qarşıda çox böyük imkanlar görürük. Faydasız xəbərdarlıqlar bitdi. Müqavimətə qoşulun".

"Taliban" rəsmisi Məhəmməd Naim isə bildirib ki, 20 il davam edən müharibə başa çatıb və yaxın zamanlarda yeni idarəçilik forması aydınlaşacaq.

Bütün bunların fonunda Vaşinqton "Taliban" hərəkatının ABŞ-ın Federal Ehtiyat Sistemi və digər maliyyə təşkilatları tərəfindən idarə olunan Əfqanıstan hökumətinin hesablarına girişini əngəlləmək qərarına gəlib. "Əfqanıstan hökumətinin ABŞ-da malik olduğu Mərkəzi Bankın istənilən aktivləri "Taliban"a təqdim edilməyəcək", - deyə ABŞ administrasiyasının nümayəndəsi qeyd edib. Əfqanıstanın Mərkəzi Bankının rəhbəri Əcmal Əhmədi jurnalistlərə bildirib ki, ölkənin valyuta ehtiyatları 9 milyard avroya yaxındır və həmin vəsaitin demək olar ki, hamısı xaricdə yerləşir. Onun dediyinə görə, ABŞ-ın həmin ehtiyatlara girişin bloklanması üzrə tədbirlər görməsindən sonra taliblərin əlinə bu məbləğin yalnız 0,1 faizindən də az hissəsinin keçməsi mümkündür.

Bundan başqa, Vaşinqton taliblərin Beynəlxalq Valyuta Fondunun təxminən 500 milyon dollar məbləğində ehtiyatlarına çıxışını bağlamaq üçün çalışır. Ümumiyyətlə, avqustun ortalarında "Taliban"ın bir sıra qələbələrindən sonra ABŞ Maliyyə Nazirliyi Əfqanıstana nağd pul tədarükünün dayandırılması haqqında qərar qəbul etmiş, bununla yüz milyonlarla dolları qoruya bilmişdir.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*

# Litvaya ABŞ-dan 50 zirehli hərbi avtomobil gətirilib

AZƏRTAC Litva Müdafiə Nazirliyinin yaydığı məlumata istinadən xəbər verir ki, hərbi avtomobillər ABŞ-dan Almaniyaya, oradan da Litvaya gətirilib. Qeyd edilib ki, Litva ümumilikdə ABŞ-dan 200 JLTV (Joint Light Tactical Vehicle) avtomobili alıb.



"JLTV zirehli avtomobilləri Litva silahlı qüvvələrinin mobilliyi və hərbi qulluqçuların təhlükəsizliyinin artırılması baxımından xüsusi əhəmiyyət kəsb edir, eyni zamanda bu, Litva ordusunun daha da modernləşdirilməsi istiqamətində atılan müsbət addımdır. Bu texnikanın əldə olunması ABŞ ilə əməkdaşlığımızın səviyyəsini əks etdirir", - deyə Litvanın müdafiə naziri Arvidas Anuşauskas mətbuata açıqlamasında bildirib.

Qeyd edilib ki, JLTV zirehli avtomobilləri Amerikanın "Oshkosh Defense" şirkətinin istehsalıdır. ABŞ hökuməti ilə 145 milyon avro məbləğində müqavilə imzalanıb. Nəzərdə tutulmuş bütün zirehli avtomobillər 2024-cü ilə qədər Litvaya gətiriləcək.

# Perunun XİN başçısı cəmi 19 gün işlədi



Terrorizm haqqında söylədikləri birmənalı qarşılanmadığına görə, Perunun xarici işlər naziri Ektor Behar istefa verib. Yerli KİV-in xəbərinə görə, nazirin fikirləri Konqresdə və silahlı qüvvələrin sıralarında narazılıq yaradıb. Xatırladaq ki, Behar 19 gün əvvəl Perunun xarici işlər naziri vəzifəsinə təyin olunmuşdu.

"Bu gün (dünən-red.) cənab Ektor Behar Prezident Pedro Kastilyoaya xarici işlər naziri postundan istefa ərizəsini təqdim edib", - deyə Prezident Administrasiyasının Mətbuat xidmətinin məlumatında bildirilir.

Beharın istefasını ölkənin Xarici İşlər Nazirliyinin binası qarşısına toplaşmış bir qrup vətəndaş da tələb edib.

# Türkiyə ilk dəfə sualtı qayıq istehsal edəcək

Türkiyə ilk dəfə yerli və milli imkanlar hesabına mini sualtı qayıq istehsal etməyə hazırlaşır. "Trend" Agentliyinin məlumatına görə, ölkədə keçirilən "İDEF-2021" Beynəlxalq Müdafiə Sənayesi Sərgisində "STM 500" adlı mini sualtı qayığın layihəsi və xüsusiyyətləri təqdim olunub.

Bildirilib ki, sualtı qayıq 18 nəfərlik heyət və əlavə olaraq 6 nəfərlik xüsusi qüvvə ilə 30 gün müddətində dənizdə tapşırıqlar icra edə biləcək.

Uzunluğu 42, hündürlüyü 8,5 metr olan "STM 500"də atəşə hazır 4 torpido qurğusu olmaqla, ümumilikdə, 8 ağır torpido və idarə olunan raket sistemi quraşdırılacaq.

Çoxfunksiyalı mini sualtı qayıq 250 metr dərinliyə qədər enə biləcək.

Mütəxəssislərin fikrincə, Egey və Aralıq dənizləri kimi dayaz sularda geniş istifadə imkanı olan mini sualtı qayığın ixrac potensialı da böyükdür.



# B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 27.07.2021-ci il tarixdə LOT-1 üzrə "Bakı Metropoliteni" QSC-nin müxtəlif növ yük burazlarının və ilməklərinin satın alınmasına dair açıq tender üsulu ilə keçirilən müsabiqədə **"TCS" MMC** qalib elan olunmuşdur. Qalib gəlmiş təşkilat ilə 58307.93 (əlli səkkiz min üç yüz yeddi manat 93 qəpik ) manat ƏDV daxil məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## "Azərişıq" ASC Daşkəsən rayonu ərazisində yerləşən "Çovdar Filiz Emalı Sahəsi" və "Daşkəsən Dəmir Filizi" yataqlarının xarici elektrik təchizatı işlərinin satın alınması məqsədilə *təkliflər sorğusu elan edir*

Təkliflər sorğusunda iştirak etmək istəyənlər 500 (beş yüz) manat məbləğində iştirak haqqını aşağıda göstərilən bank hesabına köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Mirzəağa Əliyev küçəsi, 130 ünvanından ala bilərlər.

**"Azərişıq" ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: "Kapital Bank"ın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

Maraqlanan şəxslər (+994 12) 440-39-93; daxili (92-19) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Əlaqələndirici şəxs - Namiq Heybətov namiq.heybetov@azerishiq.az

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 02 sentyabr 2021-ci il saat 12:00-a qədər qəbul olunur. Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 03 sentyabr 2021-ci il saat 12:00-da Mirzəağa Əliyev küçəsi, 130 ünvanında - "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*

## "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi və təmiri işlərinin davam etdirilməsi məqsədilə *təkliflər sorğusu elan edir*

**LOT- 1:** Nəsimi rayonu 35 nömrəli tam orta məktəbin köhnə korpusunun sökülüb yenidən inşasının davam etdirilməsi.

Təkliflər sorğusu iştirakçılarına təklif edilir ki, öz təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün prosedur iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Təkliflər sorğusunda iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər (əlaqələndirici şəxs: Əhməd Məmmədov, 496-52-05).

**İştirak haqqı LOT-1 üçün 500,00 manat**
**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:**
**Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**H/h: AZ22IBAZ38030019446253269215**
**VÖEN: 1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.F.T IBAZAZ2X**
**İştirak haqqı heç bir halda qeri qaytarılmır.**

İştirakçılar təkliflər sorğusunda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *təkliflər sorğusunda iştirak etmək üçün ərizə;*
- *təkliflər sorğusunda iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *təkliflər sorğusunda təklifi (zərfin açıldığı tarixdən sonra azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *təkliflər sorğusunda təklifi qiymətlərin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;*
- *Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *dövlət satınalmaları müsabiqəsində iştirak etmiş oxşar işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surəti (təsdiqli formada);*
- *tikinti işlərinin həyata keçirilməsi ilə bağlı müvafiq lisenziya.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki təkliflər sorğusu sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar təkliflər sorğusu ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Təkliflər sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar öz təkliflərini Əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun hazırlamalı, təkliflər sorğusunda iştirak üçün sənədləri qapalı, ayrı-ayrı möhürlənib imzalanmış ikiqat zərflərdə **02 sentyabr 2021-ci il saat 18:00-dək** Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev, 17 ünvanına (əlaqələndirici şəxs - Əhməd Məmmədov, telefon: (012) 496-52-05) təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **03 sentyabr 2021-ci il saat 11:00-da** Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev, 17 ünvanında açılcaqdır.

*Tender komissiyası*

# Narkotiklərin qanunsuz dövriyyəsini həyata keçirən şəbəkənin daha 20 üzvü saxlanılıb

Daxili İşlər Nazirliyinin (DİN) Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsi, sosial şəbəkələrdə onlayn yolla satışı ilə məşğul olan şəxslərin məsuliyyətə cəlb edilmələri istiqamətində növbəti əməliyyatlar həyata keçiriblər.

DİN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş İdarə əməkdaşlarının paytaxtın Nizami və Yasamal rayonlarında həyata keçirdikləri əməliyyatlar zamanı qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilən külli miqdarda narkotik maddələri qəbul edib hissə-hissə onlayn yolla əvvəlcədən deyilən ünvanlara qoymaqla satışını təşkil edən, həmçinin narkotik vasitələrin satışından əldə olunan çirkli pulların müxtəlif yollarla xarici ölkələrdəki banklara transfer edilməsinə kömək göstərən Xəyal Quluzadə, tanışı Aydın Kərimov və Zaur Məmmədov saxlanılıblar. Xəyal Quluzadə və Aydın Kərimovun üzərində axtarış aparılan zaman onlardan 100 qrama yaxın, paytaxtın Nizami rayonunda yaşadıqları evdən isə əlavə 3 kiloqram 205 qram heroin, 794 qram tiryək, 2 kiloqram 400 qram marixuana və 1 kiloqram 30 qram metamfetamin aşkarlanıb. Zaur Məmmədovun üzərindən və yaşadığı evdən isə ümumilikdə 11 kiloqram 650 qram heroin aşkar edilib.

Araşdırma zamanı müəyyən edilib ki, Xəyal Quluzadə, Aydın Kərimov və Zaur Məmmədov xaricdə yaşayan narkotacirlərlə əlaqə yaradaraq ölkə ərazisində onlar üçün narkokuryerlik edən yerli vətəndaşlardan ibarət şəbəkə yaradıblar. Həmin şəxslər narkokuryerliyə cəlb etdikləri şəxslərə müxtəlif şirnikləndirici vədlər verərək onları ələ almağa çalışıblar.

Şəbəkəyə daxil olan şəxslərin anket məlumatları Baş İdarənin əməkdaşları tərəfindən keçirilən əməliyyat-texniki tədbirlər nəticəsində dəqiqləşdirilib. Həmin narkokuryerlərin də saxlanılması istiqamətində həyata keçirilməsi nəzərdə tutulan əməliyyatlar barədə ictimaiyyətə əlavə məlumatlar veriləcək.

Baş İdarə əməkdaşlarının Yasamal rayonunda həyata keçirdikləri növbəti əməliyyatlar zamanı isə narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan daha üç nəfər - Elçin Məmmədov, Əzizbala Məmmədov və Zülfü Həsənov saxlanılıblar. Elçin Məmmədovun üzərindən 204 qram heroin, yaşadığı evdən isə 314 qram metamfetamin aşkar edilib. Əzizbala Məmmədov və Zülfü Həsənovdan isə ümumilikdə 6 qram heroin, 29 qram metamfetamin və 1 elektron tərəzi aşkarlanıb.

Nəsimi rayonunda keçirilən əməliyyatlar zamanı isə narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan Mirvaqif Bağırov, Zərbəli Şahverdiyev və Qurban Yusifov saxlanılıblar. Bu şəxslərdən ümumilikdə 12 qrama yaxın heroin və elektron tərəzi aşkar edilib.

Baş İdarə əməkdaşlarının Nərimanov və Qaradağ rayonlarında həyata keçirdikləri əməliyyatlar zamanı da narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan Ramin Abdullayev və Ələsgər Zərbəliyev saxlanılıblar. Ramin Abdullayevin üzərindən və yaşadığı evdən 126 qram metamfetamin və 221 qram heroin, Ələsgər Zərbəliyevin üzərində şəxsi axtarış aparılan zaman isə 50 qram heroin və 1 elektron tərəzi aşkar olunub.

Sumqayıt şəhərinin Corat qəsəbəsində həyata keçirilən sonuncu əməliyyat zamanı isə əvvəllər məhkum olunmuş Vüqar Mehtiyev saxlanılıb. Onun üzərində şəxsi axtarış aparılan zaman 51 qram, yaşadığı evdən isə əlavə 2 kiloqram 30 qram heroin aşkar edilib. Araşdırma zamanı Vüqar Mehtiyevin Sumqayıt şəhəri və ətraf qəsəbələrdə narkotiklərin satışı ilə məşğul olduğu məlum olub.

Baş İdarənin Cənub Bölgəsində Regional Şöbəsinin əməkdaşlarının Astara rayonunda həyata keçirdikləri əməliyyat zamanı narkotik maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsini təşkil edən rayonun Şahağacı kənd sakinlərindən ibarət mütəşəkkil dəstənin üzvləri saxlanılıblar. Nəticədə kənd sakinləri əvvəllər məhkum olunmuş Əlibala Məmmədov, Fazilə Rzayeva, Şəhruz Quliyev, Ramin Ağayev, Şəhriyar Mirzəyev və İsmayıl Mirzəyev tutulublar. Dəstə üzvlərinin hər birinin üzərindən və yaşadıqları evlərdən ümumi çəkisi 316 qram olan heroin və metamfetamin aşkar edilib.

Qeyd edək ki, adları sadalanan şəxslərin ətraflarında əməliyyat tədbirləri həyata keçirilən zaman onların xaricdə yaşayan və ölkə ərazisinə qaçaqmalçılıq yolu ilə narkotik maddələr göndərməyə çalışan narkotacirlərlə sıx əlaqələrinin mövcudluğu ortaya çıxarılıb. Araşdırma zamanı bu şəxslərin narkotik maddələrin ölkə ərazisində yayılması üçün kuryerlik etdikləri və satışı ilə məşğul olduqları müəyyənləşdirilib.

Baş İdarənin Cənub Bölgəsində Regional Şöbəsinin əməkdaşlarının Lənkəran şəhəri və Biləsuvar rayonunda həyata keçirdikləri əməliyyatlar zamanı da narkotik maddələrin dövriyyəsi ilə məşğul olan Şahin Ağayev və Ramil Quluzadə də saxlanılıb. Şahin Ağayevin yaşadığı evdən ümumi çəkisi 74 qram olan heroin, eləcə də metamfetamin, Ramil Quluzadədən isə 2 kiloqram 322 qram marixuana aşkarlanıb.

Faktlarla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanılıb zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir. Sonuncu əməliyyatlar zamanı Baş İdarənin əməkdaşları tərəfindən ümumilikdə 24 kiloqrama yaxın narkotik vasitə və psixotrop maddə qanunsuz dövriyyədən çıxarılıb. Saxlanılan şəxslərdən 19-u məhkəmələr tərəfindən tutularaq barələrində həbs qətimkan, 1 nəfər haqqında isə alternativ növdən olan qətimkan tədbiri seçilib.

Saxlanılan şəxslərin bəziləri aktiv narkotik vasitə və psixotrop maddə istifadəçiləridir. Müayinələr zamanı onların bir neçəsinin narkotik vasitə istifadə etməsi nəticəsində insan həyatı üçün olduqca təhlükəli olan hepatit və QİÇS virusuna yoluxduqları və daşıyıcıları olduqları müəyyən edilib.

DİN vətəndaşlara bir daha müraciət edərək sağlam gələcək naminə onları narkotik vasitələrdən uzaq durmağa səsləməklə yanaşı, bu maddələrin qanunsuz dövriyyəsi barədə əllərində olan məlumatları polis əməkdaşları ilə bölüşməyə çağırır.


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərmətbuatyayımı" ASC | (012) 440-46-94, (012) 441-19-91 |
| "Azərpoçt" ASC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Kaspi" MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


# Pambığın alış qiyməti 50 manat artırılıb

Pambıqçılığın dəstəklənməsi istiqamətində daha bir addım atılıb. Pambıq istehsalı və emalı ilə məşğul olan şirkətlər məhsul yığımı ərəfəsində pambığın alış qiymətinin artırılması barədə qərar qəbul ediblər.



Kənd Təsərrüfatı Nazirliyinin yaydığı məlumatda bildilir ki, şirkətlər arasında əldə olunan razılaşmaya əsasən, pambığın növlər üzrə mövcud alış qiymətləri hər tona 50 manat olmaqla 2021-ci ilin məhsulu üçün 1-ci növün qiyməti 650 manatdan 700, 2-ci növün qiyməti 630 manatdan 680, 3-cü növün qiyməti 590 manatdan 640, 4-cü növün qiyməti 550 manatdan 600 manata qaldırılıb. Bu qərar fermerlərin məhsul istehsalına həvəsləndirilməsi üçün qəbul olunub.

Pambığın hər tonunun alış qiymətinin 50 manat artırılması nəticəsində pambıq istehsalı ilə məşğul olan fermerlər xeyli əlavə qazanc əldə edəcəklər.

Qeyd edək ki, pambıqçılığın inkişafı dövlət tərəfindən dəstəklənir. Təhvil verilən pambığın hər tonuna görə fermerlərə 100 manat subsidiya ödənilir. Bundan başqa, fermerlər pambq əkdikləri sahənin hər hektarına görə 260 manat əkin subsidiyası alırlar.

Xatırladaq ki, 2020-ci ildə Azərbaycanda 336 min tondan artıq pambıq istehsal olunub, pambıq üzrə orta məhsuldarlıq 33,6 sent/ha təşkil edib. Bu, son illər pambıqçılıqda qeydə alınan ən yüksək məhsuldarlıqdır.

# Azərbaycanda koronavirus infeksiyasına 4129 yeni yoluxma faktı qeydə alınıb

Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 4129 yoluxma faktı qeydə alınıb, 968 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 20 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 377 min 304 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 341 min 142 nəfər müalicə olunaraq sağalıb, 5 min 208 nəfər vəfat edib. Aktiv xəstə sayı 30 min 954 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 17 min 740, bugünə qədər isə ümumilikdə 4 milyon 252 min 882 test icra olunub.




# Bu gün COVID-19 əleyhinə 66 min dozadan çox peyvənd vurulub

Avqustun 18-də Azərbaycanda 66 min 519 nəfər yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə vaksinasiya olunub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, gün ərzində birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 52 min 661, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 13 min 858 nəfər təşkil edib.

Azərbaycanda bugünə qədər vurulan vaksinlərin ümumi sayı 5 milyon 932 min 734, birinci mərhələ üzrə peyvənd olunanların ümumi sayı 3 milyon 526 min 467, ikinci mərhələ üzrə vaksinasiya edilənlərin sayı 2 milyon 406 min 267 nəfərdir.




## ALLAH RƏHMƏT ELƏSİN!

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov və şəhər icra hakimiyyətinin kollektivi AMEA Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyevə əzizi

**SUADIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yasamal Rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Yasamal rayon Təhsil işçiləri Azad Həmkarlar Komitəsinin sədri

**ELÇİN HƏMİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 4934
Sifariş 1508
Qiyməti 40 qəpik